DİQQƏT!

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.





"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 182 (6146) 15 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndini işğaldan azad edib!

**Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazıb.**



## Əli Əhmədov: "Çoxdan gözlədiyimiz qələbənin nəfəsi artıq çox aydın hiss olunur"



**Qəhrəman Azərbaycan Ordusu növbəti şanlı qələbəsi ilə xalqımıza yenə də sevinc və fərəh hissləri bəxş etdi. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib.**

Bax 7

## Hikmət Hacıyev: "Ermənistan döyüşlərə silahlı muzdluları cəlb etməklə beynəlxalq hüququn norma və prinsiplərini açıq şəkildə pozur"



Bax 7

Ermənistanın rəsmi şəxsləri açıq şəkildə müraciət edərək xarici ölkə vətəndaşlarını könüllü adı altında muzdlular kimi Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün cəlb edirlər. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib...

## Ərdoğan və Putin Qarabağ məsələsini müzakirə ediblər



Bax 9

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. AZƏRTAC xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin Dağlıq Qarabağ məsələsinin uzunmüddətli...

## Polad Həşimovun qisası alındı: Erməni terrorçu məhv edilib!



Azərbaycan Ordusunun generalı Polad Həşimovun ölümü ilə yadda qalan əməliyyatı icra edən erməni zabit məhv edilib. SİA xəbər verir ki, bu barədə jurnalist Elçin Alıoğlu məlumat verib.

Bax 5

## Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkəti dayandırılacaq



Bəzi şəhər və rayonlarda xüsusi karantin rejimində əlavə şərtlər qüvvəyə minib. AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin 387 nömrəli Qərarına əsasən, Gəncə, Yevlax, Mingəçevir, Lənkəran, Şəki, Şirvan şəhərlərində və Göygöl, Samux, Sabirabad, Quba rayonlarında:...

Bax 9

**Erməni qadından Paşinyana: Rədd ol Azərbaycan torpaqlarından**



Bax 9

**Araikin aciz yalvarışları nəticə vermir**



Bax 13

**Kriştiano Ronaldo 10 günlük karantinə alınacaq**



Bax 16

# İlham Əliyev: “Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!”

## *Prezident İlham Əliyev Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibə verib*

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibə verib. Oktyabrın 14-də həmin televiziya kanalında dövlətimizin başçısının müsahibəsi yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.***



*“Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz. Bu, qanuna ziddir. Bu, beynəlxalq hüquqa ziddir. Bu, qəbuledilməzdir”*

- Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə birlikdəyik. Cənab Prezident, bir yandan cəbhədə, bir yandan diplomatiyada sıx qrafikiniz var. “Haber Türk”ə vaxt ayırdığınız üçün Sizə çox təşəkkür edirəm.

- Sağ olun.

**- Cənab Prezident, Ermənistan ilə Azərbaycan arasında Moskvada 11 saat yarım davam edən bir görüş keçirildi. Ancaq bu görüşdən sonra Ermənistan xüsusi qəddarlıqla Gəncə şəhərini atəşə tutmağa, mülki şəxsləri hədəfə almağa başladı. Burada diqqət çəkən məqam Ermənistanın öz ərazisindən Azərbaycanı hədəfə almasıdır. Ermənistan diplomatiya sahəsində belə bir görüş keçirilərkən bu cür hücuma niyə ehtiyac hiss etdi? Dünya ictimaiyyətindən bu məsələdə istədiyiniz dəstəyi gördünüzmü, Sizə gələn mesajlar oldumu?**

- Ermənistanın bu çirkin siyasəti anlaşılandır. Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür. Bu dəfə də bütün cəbhəboyu Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək bir neçə şəhər və kəndimizi işğaldan azad etmişdir və işğaldan azadetmə əməliyyatımız uğurla davam edir. Bu gün səhər mənə verilən məlumata görə, Azərbaycan Ordusu bu istiqamətdə daha böyük uğurlara imza atdı. Bu məsələ ilə bağlı lazım olan vaxtda açıqlama veriləcək.

Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər. Fəqət mən demişdim ki, bizim qisasımız döyüş meydanında olacaq. Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq və bizim bütün hədəflərimiz hərbi hədəflərdir. Əməliyyatın ilk günlərindən bütün hərbi hədəflər bir daha nəzərdən keçirildi və bizim dəqiq, sərrast atışlarımız bu hədəfləri məhv etdi. Erməni ordusuna çox böyük zərər vuruldu, 200-dən çox tank, 2 “S-300” hava hücumuna qarşı qurğu, bir çox başqa texnika məhv edildi, 33 tank və digər texnika qənimət kimi götürüldü.

Bu, Ermənistanın növbəti terror aktıdır. Ancaq bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşacağıq, daha əzmlə, iradə ilə öz torpaqlarımızı azad edəcəyik və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldıracağıq.

O ki qaldı, beynəlxalq təşkilatların və beynəlxalq ictimaiyyətin buna reaksiyasına, Türkiyə hər zaman olduğu kimi, bizi bir daha bu məsələ ilə bağlı açıq və birmənalı dəstəklədi. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın açıqlamaları, digər yüksək səviyyəli vəzifələrin açıqlamaları bir daha qardaşlıq münasibətlərimizin təzahürü idi. Pakistan və onun Baş Naziri çox böyük həmrəylik göstərərək çox müsbət açıqlama vermişdir, digər ölkələr də vermişdir. Ancaq deyə bilmərəm ki, bu, dünya miqyasında geniş vüsət almışdır. Halbuki hər kəs üçün bu, gün kimi aydındır. Atəşkəs rejimi haqqında açıqlama verilir, ondan bir gün keçməmiş belə namərd hücum təşkil edilir. Bu, bir daha onu göstərir ki, atəşkəsi kim istəmir.

Mən demişdim, bizim hədəfimiz, bizim məqsədimiz işğal edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşlarını qaytarmaqdır. Bildirmişdim, atəşkəs imkan verəcək ki, bu məsələ artıq hərbi müstəvidən siyasi müstəviyə, diplomatik müstəviyə keçsin. Bu məsələ diplomatik müstəvidə danışıqlar masası arxasında həll olunsun və Ermənistan hələ də işğal altında olan digər torpaqlardan çəkilsin, Azərbaycan vətəndaşları oraya qayıtsın və sülh yaransın. Ancaq görünür ki, Ermənistanın planları tam başqa imiş. Onlar hesab edirmişlər ki, bu atəşkəsdən istifadə edərək, bunu istismar edərək öz hərbi məğlubiyyətlərini bir qədər azalda bilərlər, vaxt qazana bilərlər, yeni qüvvələr səfərbər edə bilərlər və beləliklə, Azərbaycana qarşı hücumları davam etdirə bilərlər. Amma onlar yanıldılar. Mən demişdim ki, əgər Ermənistan müsbət davranış göstərməsə peşman olacaq və haqlı idim.

**- Cənab Prezident, Sizin Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri 11 saat yarım davam edən bir görüş keçirdilər. Siz, bu görüş davam edərkən açıqlama verdiniz, bir şərtiniz var idi, bizə bir təqvim versinlər. Yəni, Ermənistanın Qarabağdan çəkilməsi üçün bir təqvim verilsin. Moskvadakı görüşdə bir təqvim, ya da Qarabağın gələcəyinə dair Moskvanın ortaya qoyduğu bir layihə, bir plan oldumu?**

- Xeyr, təqvim verilmədi, biz də çox israr etmədik. Çünki Moskva anlaşmasında, açıqlamasında bizi qane edən, bizim maraqlarımıza cavab verən maddələr bizi təmin etdi. Onu da bildirməliyəm ki, Moskva müzakirələrinin uzun çəkməsinin səbəbi o idi ki, bizim üçün məqbul olmayan bəzi maddələr o açıqlamaya salınmalı idi. Bizim bundan xəbərimiz yox idi. Bizim Xarici İşlər nazirimiz Moskvaya gələndə və artıq müzakirə masasına əyləşəndə hər iki nazirə təkliflər verildi. Təbii ki, mənimlə əlaqə saxlanıldı və biz müntəzəm olaraq əlaqədə idik. Mən bizim şərtlərimizi demişdim və o şərtlərdən kənarda hər hansı bir razılaşma mümkün deyildi.

Ona görə biz vəziyyəti nəzərə alaraq, təqvimlə əlaqədar mövqeyimizi bir qədər yumşaltdıq. Ancaq bu, o demək deyil ki, bu təqvim olmayacaq, bu, olacaq. Ancaq nə zaman? Artıq müzakirə prosesi çərçivəsində. O açıqlamada göstərildi ki, müzakirələr baza prinsipləri, yəni Madrid prinsipləri əsasında bərpa edilir ki, o da işğal altındakı torpaqlarımızın Azərbaycana qaytarılmasını təsbit edir. Eyni zamanda, danışıqlar formatı dəyişməz olaraq qalır. Yəni, danışıqlar Ermənistan və Azərbaycan arasında aparılacaq. Qondarma “Dağlıq Qarabağ respublikası”nın hər hansı bir nümayəndəsinin bu danışıqlarda iştirakı müzakirə mövzusu deyil. Bunlar bizi qane etdi. Bizim təxminimiz ondan ibarət idi ki, artıq dərhal danışıqlar başlasın və təqvim məhz bu danışıqlar çərçivəsində bizə təqdim edilsin. Bu təqvim bizi qane etməlidir. Yəni, bu, çox uzunmüddətli proses ola bilməz. Biz otuz il gözləmişik. Artıq Azərbaycan xalqının səbri tükənibdir. Əgər danışıqlar bərpa edilərsə, əminəm ki, bu təqvim bizə veriləcək. Ancaq Ermənistanın bu anlaşmanı, bu açıqlamanı pozması göstərir ki, onların niyyəti, sadəcə olaraq, vaxt qazanmaq və Azərbaycana öz hücumunu davam etdirməkdir.

*Ardı Səh. 3*

# İlham Əliyev: "Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

*Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibə verib*

Əvvəli-Səh-2

**- Cənab Prezident, Dağlıq Qarabağın müstəqilliyi ilə bağlı Ermənistanın cəhdləri var. Ermənistan Fransada, Rusiyada, hətta erməni diasporunun güclü olduğu digər ölkələrdə siyasi təzyiq formalaşdırmağa çalışır. Qarabağın işğaldan azad edilməsi məsələsində Siz qətiyyətlisiniz. Qarabağ işğaldan azad edildikdən sonra Sizin necə bir modeliniz var? Bir muxtar bölgə, müstəqil bir struktur, necə bir proses olacaq Qarabağla bağlı?**

- Birincisi, onu deməliyəm ki, Ermənistanın hazırda göstərdiyi cəhdlər yersizdir və onların özləri üçün zərərlidir. Çünki birinci növbədə heç bir ölkə Azərbaycanın ayrılmaz hissəsi olan və beynəlxalq hüquq baxımından Azərbaycana mənsub olan Dağlıq Qarabağa müstəqillik verməyəcək, onu tanımayacaq. Belə olan halda, bu cəhdlər səmərəsiz qalacaq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb. Baxın, Minsk qrupuna həmsədrlik edən ölkələr, onlar bizim ərazi bütövlüyümüzü tanıyır. Avropa İttifaqı ilə bizim "Tərəfdaşlıq prioritetləri" adlı sənəd paraflanmışdır. Orada Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək göstərilir. Yəni, mən inanmıram ki, hər hansı bir ölkə Dağlıq Qarabağın müstəqilliyini tanısın. Çünki bundan heç bir saat keçməmiş bu ölkə ilə biz bütün diplomatik əlaqələrimizi kəsərik. Bu, mütləqdir. Ona görə Ermənistanın bu cəhdləri, sadəcə olaraq, daxilə, yəni, öz ictimaiyyətinə hesablanıb ki, sanki bunlar da hər hansı bir diplomatik fəaliyyətdədirlər.

O ki qaldı, sülhdən sonrakı dönəmə, bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Bizim mövqeyimiz həm tarixi ədalətə, beynəlxalq hüquqa və dünyada mövcud olan müsbət təcrübəyə əsaslanır. Yəni, birinci mərhələdə işğal olunmuş rayonlardan erməni silahlı qüvvələri çıxarılır. Prinsip etibarilə bu məsələ artıq Minsk qrupu çərçivəsində təsbit edilib, - beş rayon, ondan sonra iki rayon, ondan sonra Dağlıq Qarabağın özündən, Şuşadan, Xankəndidən, - orada bir çox kəndlərdə azərbaycanlılar yaşayıb, - Azərbaycan vətəndaşları oraya qayıdır və Dağlıq Qarabağın gələcəyi ilə əlaqədar müzakirələr davam edir. Ancaq yeni bir şəraitdə, yeni bir iqlim çərçivəsində. Artıq biz sülhə daha da yaxınlaşacağıq. Ona görə orada yaşayan ermənilərlə əlaqədar bizim mövqeyimizdə dəyişiklik yoxdur. Azərbaycan çoxmillətli dövlətdir. Azərbaycanın müxtəlif yerlərində, ilk növbədə, Bakı şəhərində minlərlə erməni yaşayır və onlar bizim vətəndaşımızdır. Bizim ölkəmizdə bir çox millətlər yaşayır və bu, ölkəmizin gücünü artırır. Ona görə Dağlıq Qarabağda yaşayan ermənilər narahat olmasınlar. Biz onların canını o kriminal xunta rejimindən qurtarandan sonra onlar daha yaxşı yaşayacaq, daha güvənli, daha təhlükəsiz şəraitdə yaşayacaq və onların rifahı daha da artacaq. Çünki orada indi səfalət hökm sürür. Biz oraya sərmayə də yatırarıq, biz orada sosial proqramlar da icra edərik, iş yerlərinin yaradılması ilə əlaqədar proqramlarımız olacaqdır. Bütün bunlar orada yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar üçün yeni bir mərhələ olacaq. Bizim mövqeyimiz bundan ibarətdir. Ermənistanın mövqeyi isə azərbaycanlıları oradan qovmaq, etnik təmizləmə aparmaq, Azərbaycanın tarixi-dini abidələrini yerlə-yeksan etmək və ondan sonra elan etmək ki, bu, qədim Ermənistan torpağıdır. Halbuki ermənilər oraya çar Rusiyası tərəfindən XIX əsrin əvvəlində köçürülüb. Bu, tarixdir. Bu tarixi biz bilirik. Ona görə bizim mövqeyimiz bundan ibarətdir. Azərbaycan xalqı bu mövqeyi bilir və bunu dəstəkləyir.

> *"Bizim ölkəmizdə bir çox millətlər yaşayır və bu, ölkəmizin gücünü artırır. Ona görə Dağlıq Qarabağda yaşayan ermənilər narahat olmasınlar. Biz onların canını o kriminal xunta rejimindən qurtarandan sonra onlar daha yaxşı yaşayacaq, daha güvənli, daha təhlükəsiz şəraitdə yaşayacaq və onların rifahı daha da artacaq"*

**- Cənab Prezident, bu fikirlərinizdən başa düşdüyüm qədər, Siz, təkcə əməliyyatı deyil, əməliyyat sonrasını da izah etdiniz, mərhələ-mərhələ konsepsiyasından bəhs etdiniz. Ancaq bilirik ki, münaqişə dövründə çox böyük kədər yaşandı, Qarabağda 30 min Azərbaycan türkü həlak oldu, şəhid oldu. Yenidən o coğrafiyada xalqlar birlikdə yaşaya biləcəkmi? Yaxud, ermənilər və Azərbaycan türkləri ayrı-ayrı rayonlarda yaşayacaqlar? Necə bir planlaşdırma olacaq?**

- Bilirsiniz, Azərbaycan xalqı çox xeyirxah xalqdır. Məhz ona görə Azərbaycanda onlarla digər xalqların nümayəndələri yaşayırlar, sülh, ləyaqət içində yaşayırlar. Odur ki, mən tam əminəm, ermənilər və azərbaycanlılar o bölgələrdə bir yerdə yaşaya bilərlər. Necə ki, bu gün Azərbaycanın digər yerlərində, necə ki, məsələn Gürcüstanda. Gürcüstanda 300 mindən çox azərbaycanlı və təqribən 200 minə yaxın erməni əhali var. Bəzi kəndlərdə onlar bir yerdə yaşayırlar, bir kənddə. Onların arasında hər hansı bir problem yoxdur. Onlar normal qonşu kimi yaşayırlar, Rusiyada da, Ukraynada da, digər ölkələrdə də. Niyə də bunu burada edə bilmərik?

Mən hesab edirəm ki, biz buna hazır olmalıyıq. Biz xalqlarımızı buna hazırlamalıyıq. Mənim bu gün sizə dediyim sözlər Azərbaycan xalqı tərəfindən qəbul edilir və dəstəklənir. Bu, eyni zamanda, bu gün Dağlıq Qarabağda yaşayan ermənilərə də mənim müraciətimdir. Onlar bilsinlər ki, Azərbaycan xalqı onların düşməni deyil. Sadəcə olaraq, Azərbaycan xalqı öz dədə-baba torpaqlarında yaşamaq istəyir. Buna Azərbaycan xalqının haqqı var. Onlar da yaşasınlar, biz də yaşayaq. Amma bizi qovsunlar, onlar yaşasınlar, bu, ədalətli deyil. Biz buna heç vaxt razı ola bilmərik.

Əlbəttə ki, hər bir müharibə sülh ilə nəticələnir. Ona görə, indi biz müharibədən sonrakı mərhələyə də baxmalıyıq. Əgər hər iki tərəfdə güclü siyasi iradə olarsa və beynəlxalq təşkilatlar bu məsələdə bizə kömək edərsə, hesab edirəm ki, buna nail olmaq mümkün olacaq. O qədər də asan olmayacaq. Ancaq biz çalışmalıyıq ki, buna nail olaq.

**- Cənab Prezident, hazırda Ermənistan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutur. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirir. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alır. Bundan məqsəd panika, xaos və qorxu yaratmaqdırmı? Siz hazırda Azərbaycan xalqının bu psixologiyasını necə görürsünüz?**

- Siz haqlısınız, məqsəd budur, panika yaratmaq, xaos yaratmaq, qorxu yaratmaq. Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir. Dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Bu gün səhər mənə verilən məlumata görə, 100-dən çox mərmi səhər saat 7-dən indi saat 10-un yarısıdır, 2 saat yarım ərzində mindən çox mərmi Tərtər şəhərinə düşüb. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir. Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər. 2016-cı ildə, məşhur Aprel döyüşlərindən sonra mən erməni vəhşiliyindən zərər çəkmiş bölgələrə getdim və bir kənddə oldum. O kənddən erməni mövqelərinə məsafə 100-150 metr idi. Bizim hərbçilər mənə dedilər ki, oraya getməyin. Getməyin, ora təhlükəlidir. Dedim, orada bizim insanlar yaşayır, onlar üçün təhlükəli deyilmi? Onlar nə qədər cəsarətli, nə qədər qürurlu insanlardır ki, orada düşmənin atəşi altında yaşayır, qurur, övladlarını böyüdür. Azərbaycan xalqı, bax, bu xalqdır!

Ona görə bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!

**- Cənab Prezident, Minsk qrupu ilə bağlı. Münaqişənin 30 ildir davam etməsinə baxmayaraq, bir həll yolu tapılmadı. Dünən bir media qurumuna müsahibənizdə formatın yenidən nəzərdən keçirilə biləcəyini, daha doğrusu, tərkibin dəyişə biləcəyini dediniz. Bu tərkib necə olmalıdır? Türkiyə masada rol almalıdırmı? Çünki səhər saatlarında Rusiyadan bir açıqlama gəldi, Türkiyənin o masada olması çox da arzu edilmir. Bu məsələyə necə baxırsınız? Bir də bununla bağlı daha bir sual vermək istəyirəm. Cənab Prezident, Rusiya bu prosesdə Qarabağa sülhməramlılar göndərmək istəyərsə, Sizin buna münasibətiniz necə olar? Səhv etmirəmsə, bir media qurumunda belə bir sual ilə qarşılaşmışdınız?**

- İlk növbədə, onu bildirməliyəm ki, sülhməramlıların bölgəyə göndərilməsi hər iki ölkənin - Ermənistanın və Azərbaycanın razılığı əsasında olmalıdır. Həmçinin sülhməramlıların göndərilməsi və sülhməramlıların tərkibi. Yəni orada kim olacaq, hansı ölkələr olacaq? Əgər hər hansı bir ölkə veto qoyarsa, təbii ki, bu, olmayacaq. İkinci məsələ ondan ibarətdir ki, hər kəs anlamalıdır bu gün sülhməramlıların göndərilməsi deyəndə Azərbaycan torpaqlarından, suveren Azərbaycan ərazisindən söhbət gedir. Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz. Bu, qanuna ziddir. Bu, beynəlxalq hüquqa ziddir. Bu, qəbuledilməzdir.

Ona görə bizdə belə bir narahatlıq yoxdur. Belə səylər, belə istəklər ola bilər. Mən bunu istisna etmirəm. Ancaq bütün məsələlər masa üzərində olmalıdır. Onu da bildirməliyəm ki, müzakirə mövzusu olan baza prinsiplərində sülhməramlıların göndərilməsi ən son mərhələdə nəzərdə tutulur. Yəni, ilk növbədə, bayaq qeyd etdiyim məsələlər həll edilməlidir - torpaqların boşaldılması, məcburi köçkünlərin qaytarılması, sərhədlərin açılması, nəqliyyat və ticarət əlaqələrinin qurulması. Ondan sonra sülhməramlıların gətirilməsi də istisna deyil. Ancaq nəzərə alsaq ki, bu 30 illik müzakirə müddətində biz müsbət nəticəyə yaxınlaşmadıq və bu məsələ heç müzakirə də olunmayıb. Ona görə bu məsələ ilə bağlı hər hansı bir fərziyyə, istək ola bilər. Ancaq Azərbaycanın razılığı olmadan bu, mümkün deyil.

O ki qaldı, Minsk qrupunun fəaliyyəti ilə əlaqədar məsələyə, mən artıq bir neçə dəfə demişəm ki, Minsk qrupu 1992-ci ildə yaradıldı. O zaman hansı əsaslar buna səbəb oldu biz bilmirik. O qrupda elə ölkələr var ki, heç bu bölgə ilə maraqlanmırlar. Heç bu bölgədə onların hər hansı maraqları da yoxdur, təsiri də yoxdur. Ona görə əgər bu münaqişənin həll edilməsini istəyirlərsə, - biz bunu istəyirik, - elə ölkələr olmalıdır ki, onlar real həyatda sülhün təmin olunmasına xidmət edə bilsinlər.

Təbii ki, biz qardaş Türkiyəni bu prosesdə görürük. Biz bunu alqışlayırıq. Biz bilirik ki, Minsk qrupu ATƏT tərəfindən qurulmuşdur və ATƏT-in öz qaydaları var. O qrupun tərkibinin dəyişdirilməsinin yəqin ki, hüquqi prosedurları var. Biz o dərinliyə getmək istəmirik. Ona görə mən demişəm ki, de-yure, ya da de-fakto, fərq etməz. Əsas odur ki, Türkiyə bu masada olsun. Onsuz da var. Çünki əziz qardaşım, hörmətli Rəcəb Tayyib Ərdoğan Qarabağ məsələsi ilə bağlı hörmətli Putinlə dəfələrlə görüşmüşdür, dəfələrlə danışmışdır. Artıq uzun illərdir, yəni, on ildən çoxdur ki, bu məsələ Türkiyə-Rusiya gündəliyində duran bir məsələdir. Mənim bundan xəbərim var. Həm Türkiyə Prezidenti, həm Rusiya Prezidenti bu haqda mənə demişdilər. Onsuz da Türkiyə var. İndi daha çox, daha böyük həcmdə, daha böyük miqyasda var.

Ardı Səh. 4

# İlham Əliyev: "Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

*Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibə verib*

Əvvəli-Səh-4

Bilirsiniz ki, Türkiyənin Xarici İşlər naziri cənab Mövlud Çavuşoğlu cənab Lavrovla, Türkiyənin Müdafiə naziri cənab Hulusi Akar cənab Şoyqu ilə telefonla danışırlar. Kim deyə bilər ki, Türkiyə prosesdə yoxdur. Türkiyə yoxdursa, nə üçün danışırsınız? Türkiyə var. Biz də əlimizdən gələni edəcəyik ki, bundan sonra da olsun. Çünki Türkiyənin burada iştirakı olmasa, bu məsələ həll edilə bilməz. Bunu hər kəs anlamalıdır. O ki qaldı, yenə də deyirəm, bu məsələnin formal tərəfinə, bu formal tərəf qala bilər, Minsk qrupu da qala bilər, onsuz da 30 il ərzində bir nəticə hasil etmədi. Ancaq bu məsələ nə qədər tez həll olunarsa, o qədər də tez Minsk qrupuna ehtiyac qalmayacaq.

**- Cənab Prezident, bir tərəfdən Ermənistanın baş naziri Paşinyan əməliyyatdan əvvəl Şuşada rəqs etdi, xalqını coşdurmağa çalışdı. Bir tərəfdən də müharibədə məğlub olduqca Türkiyəni ittiham etməyə başladı. Türkiyəni buraya əcnəbi döyüşçüləri gətirməkdə günahlandırdı. Eyni zamanda, beynəlxalq medianın da bu mövzuya çox yer ayırdığını gördük. Həmçinin Amerikadakı bir qəzetdə əcnəbi döyüşçülərin, Türkiyə təyyarələrinin Azərbaycanda olduğu xəbərləri yayımlandı. Siz Paşinyanın o rəqsini necə dəyərləndirirsiniz, bu gün hazırkı durum ortadadır. İkincisi, Türkiyənin mövqeyi və bu təyyarələr mövzusu ilə bağlı fikirlərinizi bilmək istərdim.**

- Paşinyanın sərxoş vəziyyətdə rəqsi və digər təhqirləri, həqarəti Azərbaycan xalqını haqlı olaraq hiddətləndirdi. Biz onun bu hərəkətlərinin heyfini bu gün döyüş meydanında alırıq, əvəzini çıxırıq. Azərbaycan əsgəri döyüş meydanında göstərir ki, kim haqlıdır, kim haqsızdır. Biz gücümüzü, xalqımızın iradəsini döyüş meydanında göstəririk. Paşinyanın digər təxribatları da cavabsız qalmır və qalmayacaq. Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır. Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimilərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq. Mən demişdim ki, Azərbaycan xalqının ləyaqəti ilə oynamasın, diqqətli olsun, ehtiyatlı olsun. O zənn edirdi ki, dünya erməniliyi onu müdafiə edəcək, o zənn edirdi ki, böyük dövlətlər gəlib onun yerinə vuruşacaq, bu gün də bunu istəyir. O, Rusiyanın Prezidenti hörmətli Vladimir Putinə bir gündə telefonla dəfələrlə zəng etmişdir. O, telefon zənglərinin bir hissəsi mətbuata verildi, bir hissəsi isə verilmədi. Bizdə məlumat var ki, bu son atəşkəsdən sonra da Paşinyan Putinə telefonla zəng etmişdir. Onun bu hərəkətləri, əlbəttə, göstərir ki, bu adam panikaya qapılıb, təşviş içindədir, özünü itirib. Azərbaycan Ordusu döyüş meydanında düşmənə elə sarsıdıcı zərbələr endirir ki, artıq onlar qeyri-adekvat duruma düşüblər. Bu, məsələnin bir tərəfi.

O ki qaldı, Türkiyənin burada iştirakı, yaxud da ki, hansısa xarici güclərin buraya gətirilməsi, bu, tamamilə yalandır. Türkiyə F-16-ları ilə əlaqədar məsələyə mən artıq münasibət bildirdim. Türkiyə F-16-ları buradadır. Onlar təlim zamanı gəlmişdilər, təlimdən və erməni hücumlarından sonra burada qaldılar. Amma onlar yerdədir, havada deyil. Onlardan heç biri bu savaşda iştirak etməyib. Türkiyədən heç bir insan bu savaşda iştirak etmir. O ki qaldı, əcnəbi insanlara, o da yalandır. O, bizə atılan iftiradır, böhtandır. Bizə bir dənə də sübut gətirilmədi. Sadəcə olaraq, Fransadan və Rusiyadan belə açıqlamalar verildi, vəssalam.

- Konkret sübut ortaya qoyuldumu?

- Sübut, dəlil yoxdur. Heç bir açıqlama verilmir. Bizim kəşfiyyata heç bir məlumat verilmir.

Mən sizə indi deyə bilərəm ki, kəşfiyyat orqanlarımız bizə böhtan atan ölkələrlə əlaqədə olublar, deyiblər ki, bizə dəlil, sübut verin. Vermirlər. Sözdür. İndi mətbuatda kim yazırsa yazsın, o bizi maraqlandırmır. Onsuz da Qərb mediası hər zaman Ermənistanın tərəfini tutub və bizə bundan əvvəlki dövrdə də hər zaman çox mənfi münasibət bəsləyib. Ona görə bu iftiralara biz öyrəşmişik. Ancaq rəsmi şəxslərin açıqlamaları qəbuledilməzdir. Ya bunu sübut et, ya da ki, öz sözlərini geri götür. Belə bir şey yoxdur. Buna ehtiyac yoxdur. Azərbaycan kifayət qədər güclü orduya malikdir ki, bu məsələləri özü həll etsin.

Bir də ki, əcnəbi vətəndaşların iştirakına gəldikdə, baxsınlar Ermənistana, orada nə qədər əcnəbi terrorçular var. PKK-nın düşərgələri var orada. O cümlədən Dağlıq Qarabağda PKK-nın düşərgələri var. Biz bu bölgəni işğalçılardan təmizləyəndən sonra o düşərgələri də məhv edəcəyik. Nə qədər əcnəbi bu gün bizə qarşı bu döyüşlərdə iştirak edir. Orada öldürülən terrorçuların üzərindən Kanada pasportları, Livan pasportları çıxıb. Onlar erməni əsillidir, ya da ki, erməni əsilli deyil, bu, başqa məsələdir. Başqa ölkənin vətəndaşı gəlib bizə qarşı müharibə aparır. Bunlar muzdlulardır.

Bir də deyirlər ki, Türkiyə Azərbaycana hərbi yardım edir. Bilirsiniz, Türkiyə bizim qardaşımızdır. Bizim qardaşlıq münasibətlərimiz artıq böyük sınaqlardan çıxıbdır. Biz Türkiyədən hərbi texnika alırıq, ancaq biz başqa ölkələrdən də alırıq. Biz Rusiyadan, İsraildən, Belarusdan, İrandan, Ukraynadan, Şərqi Avropa ölkələrindən, o cümlədən Türkiyədən alırıq. Türkiyənin indi inkişaf etmiş hərbi sənaye kompleksi var. Niyə almayaq? İndi baxın, Ermənistan nə edir? Biz pulla alırıq. Məndə tam siyahı var, o, sonra dərc ediləcək. Amma bir neçə məsələyə diqqətinizi çəkmək istəyirəm. Bu iki həftə ərzində Ermənistanın 200-dən çox tankı məhv edildi, 33 tank qənimət götürüldü. Yəni, 233 erməni tankı bizdədir. Ondan sonra iki S-300 qurğusu məhv edildi. Hər birinin qiymətini hər kəs bilir. Ondan sonra hava hücumundan müdafiə sistemləri - OSA-35 məhv edildi. TOR, KUB, KRUQ, karqo avtomaşınları, tank əleyhinə silahlar. Əgər hamısını hesablasan, ancaq məhv edilən və qənimət götürülən texnika 1-2 milyard dollar dəyərindədir. Sual olunur, kasıb Ermənistan, sən bu pulu haradan tapdın? Sənə verdilər. Kim verdi, onu hər kəs bilir. Verirlər və davam edir. Tovuz bölgəsində toqquşmadan sonra, iyulun 16-da münaqişə dayandı, iyulun 17-dən başlayaraq hər gün karqo təyyarələri Ermənistana silah daşıdı. Baxın, Ermənistanın dövlət büdcəsində bu maddələr var? Yoxdur. Ermənistanın valyuta ehtiyatı 1,5 milyard dollardır. Vəssalam. Onun başqa pulu yoxdur. Xarici dövlət borcu təqribən 8 milyard dollardır. Yəni, bu ölkə iflasa uğrayıb. Haradandır bu qədər ancaq məhv edilmiş, hələ nə qədər məhv ediləcək texnika? Əgər müharibə davam edərsə, biz onların bütün ordusunu məhv edəcəyik, bütün ordusunu! Ona görə onlar müharibəni nə qədər tez dayandırsalar, o qədər də tankları, topları qoruya bilərlər. Hələ Ermənistan ərazisində nə qədər var. Rusiyanın Ermənistanda hərbi bazası var, 5 min əsgər var orada. Türkiyənin Azərbaycanda hərbi bazası var? Yoxdur. Ermənistanın İranla və Türkiyə ilə sərhədini Rusiya sərhədçiləri mühafizə edir. Azərbaycan sərhədində Türkiyə sərhədçiləri var? Yoxdur. Ona görə bizi heç kim ittiham etməsin. Yoxsa biz, necə deyərlər, açarıq sandığı, tökərik pambığı, belə bir atalar sözü var.

**- Cənab Prezident, PKK-nın Qarabağda düşərgələrindən bəhs etdiniz. Düşərgələrin hansı bölgələrdə olduğu bəllidirmi?**

- Bizdə bu barədə kəşfiyyat məlumatı var. Bu barədə mən daha ətraflı açıqlama vermək istəmirəm. Daha çox dağlıq bölgəsindədir. Çünki işğal edilmiş torpaqların bir hissəsi dağlıq ərazidir, bir hissəsi isə düzənlikdir. Onlar daha çox meşələrdə və dağlıq ərazilərdə yerləşiblər. Bu məsələ ilə bağlı biz dəfələrlə beynəlxalq təşkilatlarda öz sözümüzü demişik. Hətta mən əvvəlki vəzifəmdə olarkən, - deputat kimi Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin rəhbəri idim, - orada da məsələ qaldırmışdım. Avropa deputatlarının diqqətini cəlb etmişdim bu işlərə ki, onlar Ermənistana sanksiya tətbiq etsinlər. Yəni, Ermənistan terrorçu ölkədir, terroru təşviq edən ölkədir. Ona görə belə kəşfiyyat məlumatları var. Eyni zamanda, Rusiyanın xarici kəşfiyyat idarəsinin açıqlamasında da bu, deyilmişdi. Amma nədənsə o açıqlama heç bir mətbuatda yer almadı. Həmin açıqlamada deyildi ki, Azərbaycanda əcnəbi adamlar vuruşur. Eyni açıqlamada Ermənistanın adı çəkilməsə də, PKK-nın da döyüşdüyü bildirilib. Aydındır ki, PKK Azərbaycanda ola bilməz. Amma niyə Qərb mətbuatında bu barədə bir kəlmə də yoxdur? Ört-basdır etmək istəyirlər, diqqətdən kənarda saxlamaq istəyirlər. Amma bütün bu torpaqlarda Azərbaycan bayrağı dalğalanandan sonra orada bir dənə də terrorçu sağ-salamat qala bilməz.

**- Cənab Prezident, indi enerji ilə bağlı təhlükəsizlik məsələsi müzakirə olunur. Ermənistan TANAP, ya da Türkiyəyə gedən boru xətlərini hədəfə alan hücumlar etdi. Bunun təhlükəsizliyini necə təmin edəcəksiniz? Avropada enerjiyə ehtiyac var, avropalı dostlar buna necə baxırlar?**

- Onlar bir qədər narahatdır. Amma biz təbii ki, bunu nəzərə alırıq. Çünki Ermənistandan hər şey gözləmək olar. Elə Tovuz bölgəsində iyul ayında baş vermiş toqquşmaların səbəblərindən biri də o idi. O boru xəttinə yaxınlaşmaq, ya da ki, onu nəzarət altına almaq. Məhz elə ona görə onlar bizim ərazimizə girib yeni torpaqlar işğal etmək istəyirdilər. Ancaq bunun acı nəticəsini yaşadılar. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan istismara veriləndən bu günə qədər boru xətlərinin təhlükəsizliyi ilə bağlı Azərbaycan ərazisində bir dənə də problem olmamışdır, bir dənə də, nə texniki problem, nə də ki, hansısa bir təxribat. Çünki Azərbaycan ərazisində bizim kifayət qədər inkişaf etmiş müdafiə sistemimiz var. Monitorinq aparılır, fiziki müdafiə və elektron vasitələrlə. Boru xəttinin yerin altında, dərində yerləşməsi təbii ki, bunu havadan da müəyyən dərəcədə mühafizə edir. Ancaq əgər Ermənistan bu çirkin planları, yəni, boru xətlərinin sıradan çıxarılması planlarını həyata keçirərsə, onlar üçün cavab çox ağır olacaq. Biz bu barədə artıq xəbərdarlıq etmişik. Hesab edirəm ki, gələn il TANAP-dan qaz alacaq Avropa ölkələri də onları xəbərdar etməlidir. Çünki TANAP təkcə bizim layihəmiz deyil. TANAP-ın başqa səhmdarları var, TAP-ın Avropa səhmdarları var. Bu, Avropanın enerji təhlükəsizliyi üçün müstəsna əhəmiyyət daşıyan bir layihədir. Ona görə hamımız maraqlı olmalıyıq ki, bu layihəyə hər hansı bir ziyan dəyməsin.

**- Cənab Prezidentim, daha bir sual vermək istəyirəm. İndi Paşinyan özünü itirib, təkcə özünü deyil, eyni zamanda, Ermənistan xalqını da təhlükəyə atıb. Ermənistanda yaşayan 3 milyon insan təhlükə altındadır. Avropadakı ermənilərdən, ya da oradakı iş adamlarından vasitəçi olan, deyən ki, erməni xalqının günahı yoxdur, bu, dəlidir, bununla bağlı bir telefon zəngi, danışmaq istəyən olubmu?**

- Xeyr, bununla bağlı bizə heç bir telefon zəngi olmamışdır, heç bir mesaj göndərilməmişdir. Ancaq bu, gözlənilən idi. Bilirsiniz, hər bir rəhbər, hər bir idarəçi təcrübəyə malik olmalıdır. Biliklər öz yerində, təcrübə, idarəetmə təcrübəsi. İndi bəzi ölkələrdə hakimiyyətə gəlmiş insanların heç bir təcrübəsi yoxdur. O, heç kiçik bir kolxoza da başçılıq etməmişdir. Heç kiçik bir firmaya, dükana da başçılıq etməmişdir. Onun tabeliyində bəlkə heç beş nəfər də olmayıb. Sən ölkəni necə idarə edə bilərsən? Ölkəni idarə etmək çətin məsələdir, xüsusilə bizim bölgəmizdə.

> *"Bizdə məlumat var ki, bu son atəşkəsdən sonra da Paşinyan Putinə telefonla zəng etmişdir. Onun bu hərəkətləri, əlbəttə, göstərir ki, bu adam panikaya qapılıb, təşviş içindədir, özünü itirib. Azərbaycan Ordusu döyüş meydanında düşmənə elə sarsıdıcı zərbələr endirir ki, artıq onlar qeyri-adekvat duruma düşüblər"*

Ardı Səh. 5

# İlham Əliyev: "Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

*Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibə verib*

Əvvəli-Səh-4

Oturuşmuş Avropa ölkələrində bu, o qədər də çətin məsələ deyil. Çünki ölkələr var ki, heç bilmirlər onun başçısı kimdir. Heç insanları maraqlandırmır, onlar öz həyatını yaşayır, sistem oturuşub, hər şey artıq sistem altındadır.

Amma bizim bölgəmizdə ölkəni idarə edən insandan çox şey asılıdır - insanların həyatı, təhlükəsizliyi, rifahı, beynəlxalq imici. Paşinyan küçədən gələn bir adamdır. Kim idi o? Heç kim. Bir yazar idi, heç yazar da deyil, bir qəzetin müxbiri idi. Küçədən gəldi rəhbər oldu. Nə etdi ondan sonra? Ermənistanı fəlakətə aparır. Baxın, Ermənistanda bu gün diktatura tam hökm sürür. İki keçmiş prezidentin hər birinə cinayət işi açıldı. Biri iki ilə yaxın həbsdə oturdu, sonra onu buraxdı, amma cinayət işi qalır. O birisinə də ölkə xaricinə çıxma qadağası qoyulub. Bu toqquşmalardan iki gün öncə əsas müxalifət partiyasının sədrini həbsə atdı. Ondan sonra Konstitusiya Məhkəməsini darmadağın etdi, qovdu. Konstitusiya Məhkəməsinin sədrini şantaj etdi, həbslə hədələdi və zorla öz adamlarını oraya yerləşdirdi. Jurnalistləri, media nümayəndələrini həbslərdə çürüdür. Biri aclıq elan etdi və orada öldü. Beynəlxalq müstəvidə, ənənəvi müttəfiqlərlə problem yaşandı. Rusiya ilə, Belarus ilə, digər ənənəvi müttəfiqlərlə problem yaratdı. İndi Paşinyanın ən çox ümid bəslədiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatıdır. Rusca buna ODKB deyirlər. ODKB-nin Nizamnaməsində yazılıb ki, əgər hər hansı bir ölkəyə xaricdən hücum olarsa digər ölkələr bunun gərək canını qurtarsın. Amma ODKB-nin baş katibi erməni idi, keçmiş rejimin adamı idi. Onu həbsə atdı. Yəni, o təşkilatı da təhqir etdi. Nə qədər belə şeylər etdi. Artıq hər kəs bilir ki, Paşinyan Sorosun bir məhsuludur. Bu, Soros tərəfindən idarə olunan bir adamdır. Postsovet məkanında baş vermiş çevrilişlər, "inqilablar" bir mənbədən qaynaqlanır. Soros artıq ümumi bir anlayış oldu. Mən tək onu nəzərdə tutmuram. Budur, Paşinyanın da Sorosla şəklini internetdə axtarın. Durublar qol-qola, bədənləri də bir-birinə yapışıb. Çox eybəcər bir fotoşəkildir. Odur onun atası. Ona görə Soros onu idarə edir. Ermənistanda baş vermiş bu hadisələr Sorosun növbəti məğlubiyyətidir.

2005-ci ildə onlar Azərbaycanda bunu etmək istədilər - narıncı inqilab. Amma mən durdum onların qabağında, əzdim onları, qovdum buradan, sonra Soros fondlarını da bağlatdım. Digər qeyri-hökumət təşkilatlarını da buradan rədd etdim. Dedim ki, biz özümüz bilərik. Gedin, başqa yerdə inqilab edin. Amma onlar Ermənistanda oturuşdu, qeyri-hökumət təşkilatları vasitəsilə oraya pullar gətirildi, insanlar yetişdirildi. Bu gün Paşinyan komandasının 90 faizi Soros, "Transparency International", "Amnesty International", "Human Rights Watch" və bu kimi çirkin təşkilatların nümayəndələridir. Ona görə mən bu yaxınlarda rus kanallarının birinə müsahibə verəndə dedim ki, bu gün bizim məqsədimiz Paşinyana problem yaratmaq deyil. O, nə qədər çox qalsa, bizim üçün o qədər də yaxşıdır. Yəni, başa düşürsünüz nəyə görə.

**- Cənab Prezident, sonuncu sual. Əslində, planımda yox idi, amma bunu da soruşmaq istəyirəm. Bundan sonrası necə davam edəcək? Türkiyədən çox ciddi ictimai dəstək var, yəni, ictimaiyyət deyərkən, insanlar, hər kəs Sizin çıxışlarınızı izləyir və dəstək verir. Amma 15 gündür mən Azərbaycandayam, Bərdədə, Mingəçevirdə, Gəncədəyəm. İnsanların Sizə möhtəşəm dəstəyi var. Getdiyimiz hər yerdə evi dağılan insanlardan soruşuram, "Eybi yox, evim dağılsın, evim, avtomobilim yansın, vacib deyil, amma Qarabağ alınsın" deyirlər. Möhtəşəm bir dəstək var. Bunu hər bir insandan soruşduğumuz zaman görürük. Burada ən böyük dəstək də Sizə var. Müxalifətdən də var, iqtidardan da var. Bundan sonrakı proses necə davam edəcək? Necə bir proses gözləyirsiniz? Sizcə, bu proses nə qədər davam edər? Siz təcrübəli bir atanın oğlusunuz. Qafqazın və bu bölgənin ən təcrübəli siyasi xadimi Heydər Əliyevin oğlusunuz. Qarabağ, Türkiyə və bu bölgə ilə əlaqədar Sizə söylədiyi və yadınızda qalan bir cümlə, bir fikir varmı?**

- Bilirsiniz, evləri dağılmış insanların problemlərini biz həll edərik. Onlar heç narahat olmasınlar. Özü də qısa müddət ərzində. Yadımdadır, 2016-cı ilin aprel ayında Ermənistan bizə hücum edəndə bizdə təqribən 1000-dən çox ev dağılmışdı və mən o evlərin sahibləri ilə görüşlər əsnasında demişdim ki, narahat olmayın, biz bütün bu evləri bərpa edəcəyik. Ondan təqribən 8 ay sonra yenə onların yanına, Ağdam və digər cəbhəyanı bölgələrə getdim, evlərinin açarlarını onlara təqdim etdim.

İlyarım əvvəl Şamaxı şəhərində zəlzələ oldu, minlərlə ev dağıldı. Getdim oraya dedim ki, narahat olmayın, bütün evlər bərpa ediləcək. Onu da etdik. Bir neçə ev qalıb, onları da bərpa edəcəyik. Bizdə təqribən 10 il bundan əvvəl daşqın oldu, böyük bir ərazi su altında qaldı. Təxminən 5 mindən çox ev uçub dağılmışdı. Hamısı dövlət tərəfindən bərpa edildi. Mənim yanaşmam belədir ki, əgər sənin 100 kvadratmetrlik evin var idisə, sən 120-150 kvadratmetrlik ev alacaqsan. Əgər sənin evin daxma idisə, sən gözəl təmirli yeni ev alacaqsan. Ona görə mülkiyyətini, evlərini itirmiş insanlara yardım ediləcək. Ondan başqa, bizim kəndlərdə bir çoxları ev heyvanlarını da itirdilər. Bu, onlar üçün qazanc mənbəyidir. Mən artıq tapşırıq verdim, hesablamalar aparılır, kim nə qədər ev heyvanı itirib o da veriləcək. Biz bu məsələni mütləq həll edəcəyik və Azərbaycan xalqı da bilir ki, o hansısa sığorta şirkətinə gedib müraciət etməyəcək, onu get-gələ salmayacaqlar, hansısa məmur ona problem yaratmayacaq, çünki bu, mənim şəxsi nəzarətimdədir. Bunu hər kəs bilir və mənim tapşırıqlarımı yerinə yetirəcəklər.

Bu hadisə Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu bir daha göstərir. Deyir ki, evim də batsın, malım da batsın, təki Qarabağ alınsın və biz hamımız bu amalla yaşayırıq, hamımız. Biz bu nisgili, bu həsrəti 30 ildir yaşayırıq, 30 il. Buna son qoyulmalı idi, yoxsa yox? Buna son qoyuruq və qoyacağıq.

Ona görə bu məsələ ilə bağlı indiki mərhələdə yalnız irəli getməliyik. Biz Ermənistana şans verdik. Biz bu atəşkəsə razı olmaya da bilərdik. Deyərdik ki, biz razı deyilik. Kim bizi məcbur edə bilərdi?! Heç kim. Biz bunu etdik ki, bu tərəfdən də, o tərəfdən də insanlar ölməsinlər. Onlar da yazıqdırlar. Onları da qovurlar. İndi bizim Müdafiə Nazirliyi videokadrlar yayıb, zəncirlə bağlayırlar erməni əsgərlərini, zəncirlə, dəmirə bağlayırlar, bir-birinin ayağına bağlayırlar ki, qaçmasınlar. Neçə dənə belə meyit çıxdı. Dəhşətdir, bunlar adam deyil. Bir də son günlərdə erməni əsgərlərinin arxasınca cəza taborları gəlir. Əgər kimsə geri qaçarsa, o, orada vurulur, yəni, belə vəhşilik, belə faşizm.

Biz bu nisgillə yaşadığımız üçün istəyirik ki, oraya qayıdaq, ancaq sülh yolu ilə. Ona görə Ermənistana şans verdik, atəşkəsi qoru, onu pozma, masa arxasına otur, bu məsələni həll et, torpaqlarımızı bizə ver. Sənin torpağın bizə lazım deyil. Bizim Ermənistan torpağında gözümüz yoxdur. Sizə də söylədim, oradakı ermənilər harada yaşayırlar, orada da yaşayacaqlar, bizim onlarla heç bir problemimiz yoxdur. Yəni, bu mərhələ üçün bizim siyasətimiz bundan ibarətdir sona qədər.

O ki qaldı, artıq müharibə başa çatandan sonra, əlbəttə ki, nəinki bölgə, dünya dəyişəcək. Artıq dəyişir. Hər kəs bizim gücümüzü gördü. Bizimlə hesablaşmaq səviyyəsi daha da artacaq. Onsuz da müəyyən regional məsələlərdə Azərbaycanın rolu çox önəmlidir, o daha da artacaq. Təbii ki, Türkiyə-Azərbaycan birliyi daha da möhkəm olacaq. Bu da həm Türkiyə, həm Azərbaycan üçün həyati əhəmiyyət, önəm daşıyır. Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir. Çünki bizim niyyətimiz öz maraqlarımızı təmin etməkdir.

Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu. Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik. Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq.

- Cənab Prezident, çox təşəkkür edirəm. Sıx iş rejimində, xüsusilə bir tərəfdən cəbhədən xəbərlər gəlir, bir tərəfdən diplomatik proseslər içərisindəsiniz. Amma təbii ki, Sizinlə söhbət edərkən, bu reportaj əsnasında gördüm ki, Siz, əslində, Ermənistan ictimaiyyətinin daxilində danışılanları da çox yaxşı izləyirsiniz. Bizə vaxt ayırdığınız üçün "Haber Türk" adından çox təşəkkür edirəm, cənab Prezident.

- Sağ olun. Mən təşəkkür edirəm. Çox sağ olun.

## Ərdoğandan daha bir sərt bəyanat: Geri qaytarın!



Türkyənin prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, ATƏT-in Minsk qrupu Qarabağ mövzusunda birmənalı fikir bildirməli və Ermənistan tərəfindən işğal edilmiş torpaqları Azərbaycana təhvil verməlidir. SİA xəbər verir ki, Türkiyənin dövlət başçısının Böyük Millət Məclisində səsləndirdiyi bəyanatı barədə Rusiyanın ria.ru saytı yazıb.

Rusiya xəbər agentliyi Ərdoğanın sözlərinin davamını yazaraq, onun "Minsk qrupu əvvəllər olduğu kimi bu prosesi uzadır" fikrini qeyd edib. Belə ki, qardaş ölkənin dövlət başçısının sərt bəyanatı bu cür davam edib: "Əgər siz bu məsələni həll etmək istəyirsinizsə, bu zaman onun həllini uzatmayaraq, həllin özünü tapmalısınız. Məgər bir problemi 30 il həll etməkmi olar? Minsk qrupu danışıqları başa çatdırıb, işğal olunmuş torpaqları onun sahibinə (Azərbaycana) qaytarmalıdır. Bu onilliklərlə davam edə biləcək iş deyil. Ancaq onlar torpaqları geri qaytarmadılar. Bu haraya gətirib-çıxardı? Bax belə bir vəziyyətə", qardaş ölkənin prezidenti vurğulayıb.

## Polad Həşimovun qisası alındı: Erməni terrorçu məhv edilib!



Azərbaycan Ordusunun generalı Polad Həşimovun ölümü ilə yadda qalan əməliyyatı icra edən erməni zabit məhv edilib. SİA xəbər verir ki, bu barədə jurnalist Elçin Alıoğlu məlumat verib. "General Polad Həşimova qarşı qəsd əməliyyatı icra etmiş şəxs - Ermənistan ordusunun "ulduz"larından biri, 44 yaşlı Ruben Sənəmyan öldürülüb. Ermənistan Prezidenti Armen Sərkisyanın 21 avqust 2020-ci il tarixli fərmanı ilə kapitan Sənəmyana milli qəhrəman adı verilmişdi", - jurnalist bildirib.

***Aysel Məmmədova***

## "South China Morning Post": Azərbaycanı dəstəkləmək həqiqəti dəstəkləməkdir

Honkonqda nəşr olunan nüfuzlu "South China Morning Post" qəzetinin saytında Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayan hərbi təxribatları və onun nəticəsində yaranmış vəziyyət barədə məqalələr yerləşdirilib. AZƏRTAC xəbər verir ki, "Ermənistan ilə Azərbaycan arasında toqquşmalar yenidən başlarkən Çin bu məsələdə nə üçün neytral qalmamalıdır?" sərlövhəli məqalədə Sovet İttifaqı dağılarkən millətçilərin Ermənistan ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək istəyinə düşdüyü qeyd olunub. Bildirilib ki, müharibə nəticəsində Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib və bir milyon günahsız insan öz evindən didərgin düşüb.

Məqalənin müəllifi Skarlet Ma qondarma "Dağlıq Qarabağ respublikası"nın marionet rejiminin 1931-1945-ci illərdə Çinin şimal-şərqindəki marionet Mancuriya rejiminin rəhbərliyi ilə müqayisə oluna biləcəyini vurğulayıb. O qeyd edib ki, Çin iki səbəbdən Azərbaycanla həmrəylik nümayiş etdirməli və Ermənistanı qınamalıdır. Birincisi, BMT Təhlükəsizlik Şurasının daimi üzvü və qlobal güc olan Çin beynəlxalq hüququ qorumalıdır. Bu xüsusda Çinin də xarici müdaxilə ağrısı ilə tanış olduğu vurğulanıb. Bundan başqa, Çinin Azərbaycanı dəstəkləməsi Tayvandakı separatçılara dolayı bir mesaj olar. Çin də Azərbaycanla eyni problemlə üz-üzədir: eynilə Qarabağdakı separatçılar kimi ,Tayvandakı axmaq siyasətçilər də xarici qüvvələrin onların rejimini qoruyacağını düşünürlər. Çin bu məsələdə Azərbaycanı dəstəkləməklə ərazi bütövlüyünün bütün ölkələr üçün "qırmızı xətt" olduğunu nümayiş etdirə bilər.

# Vətəndaşlar Prezidentə yazırlar: Gecə-gündüz yorulmadan göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndiririk

***Müzəffər ordumuzun cəbhədə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını müvəffəqiyyətlə alması, ard-arda qələbələr qazanması Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları tərəfindən böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Rusiyanın Arxangelsk şəhərindən Hüseyn Əliyev yazır: "Hörmətli cənab Prezident, mən doğma Vətənimdə baş verən hadisələri dərin həyəcanla izləyir, hər qələbəyə ürəkdən sevinirəm. Siz Azərbaycan xalqının ümidi, ölkənin və onun sərhədlərinin təhlükəsizlik qarantısınız. Allahdan ərazi bütövlüyümüzün bərpası yolunda müqəddəs amalınızı sonadək icra etmək üçün Sizə və ordumuza güc, qüvvət arzulayıram. Həmçinin şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı verirəm".

Türkiyənin İstanbul şəhərindən Mesut Karagöz: "Hörmətli cənab Prezident, illərdir qanayan yaramız olan Dağlıq Qarabağın erməni işğalından azad olunmasına başlanılması ürəyimizə su sərpdi. Sentyabrın 27-də erməni hücumundan sonra başlanan müharibədə Türkiyə xalqı olaraq Azərbaycanla tək ürək olduq. Allah Azərbaycanı müzəffər etsin. Bu müqəddəs yolunuz mübarək olsun. Azərbaycanın sevinci bizim sevincimizdir, Azərbaycanın kədəri bizim kədərimizdir. Azərbaycanın zəfəri bizim zəfərimizdir. Azərbaycan Ordusunun zəfərlə irəliləməsini hər gün xəbərlərdən izləyirəm. Haqsız, zalım, ikiüzlü, vicdansız erməni terrorçu dövlətinin ordusunun yerlə-yeksan olduğunu, onların Azərbaycan əsgəri qarşısında duruş gətirə bilməyərək qaçdıqlarını görmək bizə çox xoş gəlir. Mənim 40 yaşım var. İmkan olarsa, qardaş Azərbaycanın qəhrəman əsgərləri ilə bir cəbhədə vuruşmaq, erməni terrorçularını məhv etmək istərdim. Dualarımız Sizinlə, qəlbimiz Sizinlədir, cənab Prezident! Gərək olarsa bu yolda canımızı da verərik. Allah yar və yardımçınız olsun. Zəfər Azərbaycanındır. Qarabağ Azərbaycandır!".

İzmir şəhərindən Muxtar Fatih Beydili: "Çox hörmətli cənab Prezident, Siz dünyanın ən savadlı, ən vətənpərvər və uzaqgörən dövlət başçısısınız. Mən Sizə dünyadakı bütün türkmənlərin, həmçinin Hələbdə İmadəddin Nəsiminin nəvələri adından təşəkkür edirəm. Sizin rəhbərliyinizlə ordumuzun apardığı uğurlu əməliyyatlar nəticəsində torpaqlarımızın müəyyən bir hissəsi işğaldan azad olunub. Bu münasibətlə Sizi və xalqımızı təbrik edirəm. Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. İnanırıq ki, rəşadətli ordumuz Sizin rəhbərliyinizlə tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək. Sizə cansağlığı arzu edirik. Cənab Prezident, Sizin və qəhrəman ordunuzun qələbə çalması üçün dualar edirik. Allah Ordumuzu qorusun. Sizi və bütün türk millətini qorusun. Türkün türkdən başqa dostu yoxdur. Cənab Ali Baş Komandan, bütün dünya türkləri həmişə Sizin yanınızdadır. Allah Sizi və can Azərbaycanın xalqını qorusun. Xalq Sizinlədir və zəfər də Sizinlədir. Biz də sizlərlə çiyin-çiyinə dayanmışıq. Sizin rəhbərliyinizlə Azərbaycan bu gün dünyada daha layiqli və nüfuzlu yer tutur. Ölkənin uğurlu iqtisadi inkişafında, yüksək mənəvi-əxlaqi ab-havanın qorunub saxlanılmasında, mədəniyyət, elm və təhsilin hərtərəfli inkişafında quruculuq enerjisi ilə aşıb-daşan, nəzərdə tutulan planların həyata keçməsinə ardıcıllıqla və qətiyyətlə nail olan bir lider kimi Sizin şəxsi xidmətləriniz böyükdür. Siz fədakarcasına Azərbaycan xalqının xoşbəxtliyinin və rifahının qayğısına qalırsınız. Sizə möhkəm cansağlığı, bütün planlarınızın müvəffəqiyyətlə həyata keçməsini arzulayırıq. Qoy, Sizin səyləriniz Azərbaycan Respublikasının rifahı və xalqlarımızın dostluğu naminə bundan sonra da öz gözəl bəhrələrini versin. Zəfər xəbərlərini gözləyirik".

Moskva şəhərindən Vaqif Həsənov yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, uğurlu siyasətinizi və Azərbaycan üçün etdiklərinizi yüksək qiymətləndiririk. Düşmənlərimizə qarşı şiddətli döyüşlərdə ordumuza zəfər, xalqın gücü ilə yüksələrək apardığınız mübarizədə Sizə cansağlığı, uzun ömür və yeni qələbələr arzulayıram. Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycana! Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycanın qalib Prezidenti İlham Əliyevə! Eşq olsun igid, qəhrəman Azərbaycan əsgərinə!".

Gəncə şəhərindən Maqsud Əsgərovun məktubunda deyilir: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, biz Sizin torpaqlarımızın işğaldan azad olunması uğrunda gecə-gündüz yorulmadan göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndiririk, Sizə bu gərgin və şərəfli işinizdə uğurlar arzulayırıq. Biz inanırıq ki, Sizin qurduğunuz güclü Azərbaycan və güclü ordu tezliklə işğal olunmuş torpaqlarımızı işğaldan azad edəcək. Bu haqq yolunda göstərdiyiniz xidmətlər ədalətin zəfəri olacaq və biz vətəndaşlar bildiririk ki, Prezidentimizin ətrafında sıx birləşmişik".

Qusar sakini Nadirşah Şirinov: "Hörmətli cənab Prezident, bizlərə heç bir sözlə ifadə olunmayan sevinc hisslərini yaşatdığınıza görə Qusar rayonunun bütün sakinləri adından dərin minnətdarlığımı bildirirəm. İllərdir mənfur düşmənin işğalı altında olan torpaqlarımızın azad edilməsi ilə bağlı verdiyiniz qərar və şanlı ordumuzun qələbələri bizi çox sevindirir. Bu gün Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri də Sizin ətrafınızda yumruq kimi birləşib və hər bir əmrinizə hazırdır. Sizinlə fəxr edirik. Allah Sizi və şanlı Azərbaycan Ordusunu qorusun, İnşallah".

Bakı şəhər sakini Səbuhi Bağırov: "Hörməli cənab Prezident, Sizi və bütün xalqımızı cəbhə bölgəsində şanlı Ordumuz tərəfindən qazanılan uğurlara görə təbrik edirəm və bu uğurların davamlı olmasını arzulayıram. Mənim qardaşım da cəbhədədir, hazırda bütün düşüncələrim cəbhə ilə bağlıdır. Tanrı Ordumuzu qorusun! İnanırıq ki, Sizin rəhbərliyiniz altında və güclü Ordumuz sayəsində işğal olunmuş bütün torpaqlarımız azad ediləcək və üçrəngli bayrağımız doğma Qarabağımızın hər bir guşəsində əzəmətlə dalğalanacaq".

Paytaxt sakini Həsən Həsənov: "Çox hörmətli cənab Prezident, mən 1977-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalında anadan olmuşam. Ölkəmizin xüsusi təyinatlı hərbi hissəsində kəşfiyyatçı kimi müddətli həqiqi hərbi xidmətdə olmuşam. Qarabağ müharibəsində ermənilərə qarşı vuruşmuşam, kəşfiyyatçı kimi tapşırıqları yerinə yetirmişəm. Bu sahədə böyük hərbi təcrübəm var. Qardaşım Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasında hərbi vəziyyət elan edildiyi bir vaxtda bir kəşfiyyatçı olaraq torpaqlarımızın azadlığı uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmək arzusundayam. Bu döyüşlərdə iştirak etmək mənim Vətən qarşısında borcumdur. Sizi əmin edirəm ki, mənə etimad göstəriləcəyi təqdirdə bu etimadı doğrultmaq üçün bütün gücümü, hərbi bilik və bacarığımı sərf edəcəyəm. Bir çox vətəndaş kimi mən də Sizin əmrinizi gözləyirəm".

Tovuz sakini Çingiz Babayev dövlətimizin başçısına yazır: "Hörmətli cənab Prezident, Sizi Tovuzun 30 ildən çoxdur ki, erməni məkri ilə üzbəüz dayanan Əlibəyli kəndinin müharibə veteranlarının adından Qarabağ uğrunda döyüşlərdə qazanılan uğurlara görə təbrik edirəm. 30 ildir ki, kəndimizin uşaqları müharibə şəraitində böyüyür, kənd sakinləri əkin-biçinini güllə altında edir. Qismən sakitlik olsa da bu illərdə mülki şəxslərimizdən qurbanlarımız da olur. Amma bizdən narahat olmayın. Biz ermənilərdən qorxmuruq, onlar bizdən qorxur. Tovuz döyüşlərində rayonumuzun hər bir sakini igid əsgərlərimizin yanında olmaq üçün can atırdı. İndi isə hamımız Qarabağa doğru can atırıq. Kəndimizin sakinləri, bütün müharibə veteranları Azərbaycan naminə verdiyiniz qərarları dəstəkləyir. Hamımız bir nəfər kimi Qarabağı azad etməyə hazır olduğumuzu bildiririk. Hər bir azərbaycanlının duasının əvvəli də axırı da Sizin sağlamlığınız, güclü, qüvvətli olmanız üçündür. Dünyada kiçikdən böyüyə hamının sevimlisi olan Sizin kimi ikinci lider yoxdur, buna əminəm. Hamımız Sizi bir nəfər kimi ürəkdən sevirik, dəstəkləyirik, arxanızdayıq. Gözümüz televiziya ekranlarında Sizin çıxışlarınızı səbirsizliklə gözləyik. Səlis nitqiniz isə sanki uzun müddət susuz qalmış qəlbləri rahatladır, bizi ruhlandırır. Var olun, cənab Prezident! Hər şeyə görə çox sağ olun!".

Bakı şəhər sakini Yusif Bağırov: "Hörmətli cənab Ali Baş Komandan, Sizi və əsgərlərimizi ürəkdən təbrik edirəm. Xalqımıza yaşatdığınız qürurlu və sevincli günlərə görə, çox sağ olun. Xalqımız tarixən çox igidlər və qəhrəmanlar yetirib, çox şərəfli döyüşlərdən çıxıb. Bu gün Azərbaycanın qəhrəmanlıq salnaməsinə yeni şanlı səhifələr yazılır. O səhifələr ki, baxdıqca baxmaq, oxuduqca oxumaq istəyirsən. Bu tarix çox güclü və qüdrətli müəllifin şah əsəridir. Allah Sizi və əsgərlərimizi qorusun, cənab Ali Baş Komandan. Biz Sizə və əsgərlərimizə güvənirik və həmişə Sizlərləyik".

Yardımlı rayon sakini Şaiq Zaidli: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizə ürəyimin dərinliklərindən gələn minnətdarlığımı uçqar dağ rayonu olan Yardımlıdan çatdırıram. Hər gün televiziya kanallarından ordumuzun işğaldan azad etdiyi əraziləri, düşmənin məhv edilmiş texnikalarını, qənimət alınmış silahlarını seyr etdikcə bu qələbənin memarı kimi Sizi alqışlayır, güclü, məğrur Azərbaycan əsgərinə "sağ ol!" deyirik. Neçə illik həsrətdən sonra Sizin sayənizdə torpaqlarımız işğaldan azad olunur. Yardımlı xalqı Sizinlə qürur duyur, Sizi dəstəkləyir və daim dəstəkləyəcək".

Ağdaş rayonundan Yunis Nəcəfov: "Hörmətli Ali Baş Komandan, bu gün həm cəbhədə, həm beynəlxalq arenada uğurlarımızın yeganə səbəbkarı Sizsiniz. Bu qədər beynəlxalq təzyiq altında ordumuzun torpaqlarımızı azad etməsi birmənalı şəkildə qətiyyətinizin nəticəsidir. Sizin rəhbərliyiniz altında Silahlı Qüvvələrimizin şəxsi heyəti cəbhədə qəhrəmanlıq salnaməsi yazır. Cənab Prezident, Sizin də qeyd etdiyiniz kimi, Azərbaycanın üçrəngli bayrağı Qarabağda, Şuşada, Xankəndidə dalğalanacaqdır. Şəxsim və Ağdaş gəncləri adından əldə edilən zəfərlərə görə Sizə təşəkkür edir, möhkəm cansağlığı, uğurlar və daha böyük nailiyyətlər arzu edirəm".

Bərdədən Sara Məmmədova: "Hörmətli cənab Prezident, mən bir zabit anası kimi Sizə öz təşəkkürümü və xalqın sevgisini bildirirəm, Əsgər və zabit anaları Sizə və hər bir sözünüzə inanır. İnanırıq ki, Sizin yürütdüyünüz siyasət nəticəsində Azərbaycanın işğal olunmuş torpaqları tezliklə azad olunacaq. Allah Sizi var etsin, Azərbaycan naminə cansağlığı, uzun ömür bəxş etsin, daim sağlam və güclü etsin. Mən bütün ailə üzvlərim adından Sizə öz minnətdarlığımı bildirirəm. Sizinlə fəxr edirik. Qarabağ Azərbaycandır!".

Cəbrayıl sakini Dursun Balakişiyeva: "Hörmətli cənab Prezident, bir Milli Qəhrəman anası olaraq Sizin cəsarətiniz qarşısında baş əyirəm. Çünki sayənizdə oğlumun şəhid olduğu doğma yurdum Hadrut qəsəbəsi düşməndən alındı. İnşallah, bütün Qarabağımız düşmən işğalından azad olunacaq və qələbə bayrağımız tezliklə Şuşada, Laçında dalğalanacaq. Şəhidlərimizin qanını birə-beş aldığınız üçün xalqımız Sizin heykəlinizi qoyacaq. Sizə, xalqımıza güc, cəsarət və uğurlar arzulayıram. Allah Sizi və xalqımızı qorusun!".

Lənkərandan Rizvan Dadaşov: "Hörmətli Ali Baş Komandan, dövlətimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın yağı düşməndən azad edilməsi istiqamətində yürütdüyünüz haqlı siyasət bütün xalqın ürəyincədir. Sizin bu istiqamətdə atdığınız hər bir addımı dəstəkləyir, daim arxanızda olduğumuzu bildirmək istəyirik. Bu haqq savaşında Vətənimizə xidmət etməyi özümüzə böyük şərəf və borc bilirik. Allahdan Sizə, səngərdə riyakar düşmənlə üz-üzə duran igid əsgərlərimizə cansağlığı və davamlı qələbə sevincləri arzu edirəm. Qarabağ bizimdir! Qələbə bizimlədir!".

# Əli Əhmədov: "Çoxdan gözlədiyimiz qələbənin nəfəsi artıq çox aydın hiss olunur"



Qəhrəman Azərbaycan Ordusu növbəti şanlı qələbəsi ilə xalqımıza yenə də sevinc və fərəh hissləri bəxş etdi. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib.

"Füzuli və Xocavənd rayonlarının azad edilən 8 kəndi böyük qələbəni əhəmiyyətli dərəcədə bizə yaxınlaşdırır. Çoxdan gözlədiyimiz qələbənin nəfəsi artıq çox aydın hiss olunur. Reşadətli Azərbaycan Ordusu, qəhrəman əsgərimiz və müdrik Ali Baş Komandanımız ölkəmizin həyatında ən şərəfli tarixi yazırlar. Tarix isə onların adını qızıl hərflərlə öz səhifələrinə yazır. Eşq olsun Azərbaycan Ordusuna və Ali Baş Komandanımıza! Qarabağ Azərbaycandır!", - deyə Baş Nazirin müavini qeyd edib.

# "EU Today": Ermənistan Cənubi Qafqazda yeni Srebrenitsa soyqırımı törətmək niyyətindədir?

***Londonda fəaliyyət göstərən "EU Today" media platforması "Ermənistan Cənubi Qafqazda yeni Srebrenitsa soyqırımı törətmək niyyətindədir?" adlı məqalə dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalədə Rusiyanın vasitəçiliyi ilə döyüş əməliyyatlarının gedişində həlak olanların cəsədlərinin və əsirlərin dəyişdirilməsi üçün əldə olunan humanitar atəşkəs razılaşmasının qüvvəyə mindiyi andan etibarən pozulması, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərinə raket zərbələri endirməsi və bu hücumlar nəticəsində azyaşlılar da daxil olmaqla, dinc sakinlərin həlak olması və yaralanması barədə məlumat verilir.

Məqalədə Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun "Humanitar atəşkəs razılaşması əldə edildikdən sonra Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində mülki əhalinin atəşə tutulması barbarlığın daha bir bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışları riyakarlıqdan başqa bir şey deyil" fikri də yer alıb.



EUtoday

POLITICS | BUSINESS & ECONOMY | SECURITY & DEFENCE | ENERGY | ENVIRONMENT | HUMAN RIGHTS

SECURITY & DEFENCE

Posted on Oct 13, 2020

Is Armenia acting out a new Srebrenica in the South Caucasus?

The ceasefire in Nagorno-Karabakh, brokered by Moscow, in order to allow for the recovery of fallen soldiers and for the exchange of prisoners, was broken almost as soon as it began.

Müəllif ermənilərin bu təxribatlarını Srebrenitsa soyqırımı ilə müqayisə edir. "Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 8-ci maddəsinə əsasən mülki əhaliyə və ya döyüşlərdə birbaşa iştirak etməyən fərdi mülki şəxslərə qarşı qəsdən edilmiş hücumlar müharibə cinayəti hesab edilir. Müəllif Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə istinadən bildirib ki, bu hərəkətlər Ermənistanın dünya birliyinə, o cümlədən Rusiya Federasiyasına hörmətsizliyi kimi qiymətləndirilməlidir. Qeyd edilir ki, Ermənistan silahlı qüvvələri 1949-cu il Cenevrə Konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq təmas xətti boyunca yaşayış bölgələrində və münaqişə zonası xaricində yerləşən bölgələrdə mülki əhalini, fərdi evləri və digər mülki infrastrukturu qəsdən hədəf almağa davam edir.

# Argentina nəşri Ermənistanın hərbi təxribatlarından yazır

Argentinada çıxan gündəlik "Clarin" qəzetinin internet portalında "Azərbaycan Ermənistanın bir neçə ballistik raketinin məhv edildiyini bildirib" sərlövhəli məqalə dərc olunub (bax:https://www.clarin.com/agencias/efe-azerbaiyan-informa-destruido-varios-cohetes-balisticos-armenia_0_VoeItWslWd.html).

AZƏRTAC xəbər verir ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinad edilən məqalədə oktyabrın 14-də Ermənistan ərazisində Azərbaycanın mülki infrastruktur obyektlərinə və şəhərlərinə tuşlanmış bir neçə ballistik raketin Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edildiyi bildirilir.

Oktyabrın 14-ünə keçən gecə Azərbaycan Ordusu Azərbaycanın işğal altında olan Kəlbəcər rayonunun yaxınlığında sərhədyanı zonada Ermənistan tərəfindən yerləşdirilmiş bir neçə taktiki ballistik raket kompleksini məhv edib. Sonradan yenə həmin ərazidə ermənilərin daha bir ballistik raketi məhv edilib. Azərbaycan hərbçilərinin verdiyi məlumata görə, bu raket ölkənin ikinci ən böyük şəhəri olan Gəncəyə tuşlanıbmış. Argentina nəşri öz oxucularının diqqətinə çatdırır ki, oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənstan arasında humanitar mülahizələrə əsasən atəşkəs barədə razılıq əldə edilməsinə baxmayaraq Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatlar bircə gün belə dayanmayıb.

"Clarin" qəzeti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması tarixi barədə məlumat verir. Qeyd edilir ki, həmin münaqişə nəticəsində Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini, habelə ona bitişik, "təhlükəsizlik zolağı" adlanan geniş əraziləri işğal edib. Qəzet yazır: "Azərbaycan bəyan edir ki, Ermənistanla münaqişənin nizamlanması üçün hazırda işğal altında olan ərazilər hökmən işğaldan azad edilməlidir. Bu tələb BMT Təhlükəsizlik Şurasının bir neçə qətnaməsində təsbit olunub".



Agencias Ingresar

Clarín EFE

Clarín EFE Agencias

COMENTARIOS (0)

14/10/2020 4:20 | Clarin.com Agencias | Actualizado al 14/10/2020 4:20

Bakú, 14 oct (EFE).- Las fuerzas armadas azerbaiyanas destruyeron este miércoles varios cohetes balísticos en el territorio de Armenia que apuntaban a infraestructuras civiles y ciudades azerbaiyanas, informó el Ministerio de Defensa de Azerbaiyán.

# Hikmət Hacıyev: "Ermənistan döyüşlərə silahlı muzdluları cəlb etməklə beynəlxalq hüququn norma və prinsiplərini açıq şəkildə pozur"



***Ermənistanın rəsmi şəxsləri açıq şəkildə müraciət edərək xarici ölkə vətəndaşlarını könüllü adı altında muzdlular kimi Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün cəlb edirlər. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.***

Prezidentin köməkçisi deyib: "Bu gün həm müxtəlif internet resurslarında, həm də sosial şəbəkələrdə digər ölkə vətəndaşlarının işğal olunmuş ərazilərimizdə Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirakı ilə bağlı çoxsaylı məlumatlara rast gəlinir.

Ermənistan döyüşlərə silahlı muzdluları cəlb etməklə beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini açıq şəkildə pozur. BMT-nin "Silahlı muzdluların cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və təliminə qarşı Beynəlxalq Konvensiyası"nda qeyd olunur ki, üzv dövlətlər muzdluları cəlb və istifadə etməməli, maliyyələşdirməməli və ya onlara təlim keçməməli, eləcə də belə addımları qadağan etməlidirlər.

BMT-nin silahlı muzdlularla bağlı çoxsaylı qətnamələri var. Bu qətnamələr silahlı muzdlu fəaliyyəti ilə məşğul olanlara və onlardan istifadə edənlərə qarşı cəzasızlığı qınayır, bütün dövlətləri beynəlxalq hüquq qarşısında öhdəlikləri çərçivəsində silahlı muzdluları və onlardan istifadə edənləri məsuliyyətə cəlb etməyə çağırır. Silahlı muzdlulardan insan hüquqlarını pozmaq vasitəsi kimi istifadə edilməsi ilə bağlı BMT-nin müvafiq işçi qrupu da var.

Bundan əlavə, Avropa Şurasının "Terrorizmin qarşısının alınması üzrə 2005-ci il Varşava Konvensiyası"nın 2015-ci ildə qəbul edilmiş Əlavə Protokolu da terrorizm məqsədilə xaricə gedən şəxslərə qarşı ölkələr tərəfindən cinayət məsuliyyətinin tətbiqini nəzərdə tutur.

Bu faktlar göstərir ki, beynəlxalq ictimaiyyət silahlı muzdlu probleminin kəskinliyini və ona qarşı mübarizənin labüdlüyünü dərk edir. Ermənistan isə bunun tam əksini edir və hətta silahlı muzdluların istifadəsini qanuniləşdirmək istəyir. Bununla da növbəti dəfə beynəlxalq hüququ pozur və BMT-nin qadağalarına qarşı gedir.

Bir sıra dövlətlərin qanunvericiliyində xaricdəki döyüşlərdə silahlı muzdlu kimi iştirak edən vətəndaşlara qarşı uzunmüddətli həbs və böyük məbləğdə cərimələr nəzərdə tutulur. Bu qəbildən olan silahlı qruplaşmanın yaradılmasında və idarəçiliyində yer alan şəxsləri isə daha ağır cəzalar gözləyir. Həmçinin hərbi əməliyyatlarda iştirak edən şəxslərin müəyyən hüquqlardan məhrum edilməsi (səsvermə, seçkilərdə iştirak, vəkillik, şahidlik, himayədarlıq, oturum icazəsi) də nəzərdə tutulur.

Avropanın bir sıra dövlətləri qeyri-qanuni silahlı qruplaşmalara qoşulmalarına görə öz vətəndaşlarına qarşı ciddi tədbirlər görür. Məsələn, cari il iyulun əvvəllərində Fransada İŞİD-in tərkibində döyüşlərdə iştirak etmiş Tiler Vilus adlı şəxs 30 il müddətinə azadlıqdan məhrum edilib. Amma Xocalı soyqırımında iştirak etmiş Qilbert Minasyan adlı Fransa vətəndaşı "Liberation" qəzetinə müsahibəsində Fransa vətəndaşlarını muzdlu kimi Azərbaycana qarşı döyüşlərdə iştirak etmək üçün səfərbər etdiyini bildirib.

Son hərbi əməliyyatlar başlamazdan əvvəl də Ermənistan silahlı muzdluların, terroristlərin Azərbaycanın işğal olunmuş ərazilərinə gətirilməsini təşkil edirdi. Xaricdən silahlı muzdluların gətirilməsi Ermənistanda müdafiə haqqında qanuna dəyişikliklərin edilərək könüllülərin müdafiəyə cəlb olunması məsələsinin müzakirəsi zamanı daha aydın oldu. Bu addımla Ermənistan könüllülər adı altında faktiki olaraq digər ölkələrdən silahlı muzdluları və terrorçuları öz ordusuna cəlb etmək məqsədi güdür.

Son döyüşlər zamanı isə bu proses daha da sürətləndirilib. Həm əvvəlcədən əldə olunmuş məlumatlar, həm də işğaldan azad edilmiş Azərbaycan torpaqlarında rast gəlinmiş hallar açıq şəkildə Ermənistan tərəfində xarici ölkələrdən gələn silahlı muzdlu döyüşçü və terroristlərin vuruşduğunu sübut edir. Bizdə buna aid bir çox foto və video dəlillər var. Muzdlular arasında erməni əsilli xarici ölkə vətəndaşları yetərincədir. Həmin şəxslər mülki Azərbaycan əhalisinə qarşı hücumlarda iştirak edirlər. Bu şəxslərin erməni əsilli olması onların Azərbaycan ərazilərində döyüşməsinə haqq qazandırmır və onları xarici döyüşçü statusundan azad etmir. Bu xüsusda, aidiyyəti ölkələri belə addım atan vətəndaşları ilə bağlı ciddi tədbirlər görməyə, onların işğal olunmuş ərazilərə gəlmələrinin qarşısını almağa, eləcə də bu şəxslərə qarşı cinayət işləri açmağa çağırırıq. İşğal altındakı ərazilərimizdə vuruşan və hərbi əməliyyatlarda iştirak edən zaman həmin şəxslər avtomatik olaraq Azərbaycan Ordusunun legitim hədəfinə çevrilirlər. Döyüşdən sağ çıxıb öz ölkələrinə qayıdan silahlı muzdlular isə öz cəmiyyətləri üçün böyük təhlükə mənbəyinə çevriləcəklər".

# Prezident Administrasiyası ilə Milli Məclisin deputatları arasında növbəti görüş keçirilib







Qanunverici hakimiyyət ilə icra hakimiyyəti arasında əlaqələrin daha da təkmilləşdirilməsi istiqamətində müzakirələrin aparılması üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə Milli Məclisin deputatları arasında görüşlər davam etdirilir. Bu qəbildən olan növbəti görüş oktyabrın 14-də videokonfrans formatında keçirilib. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Milli Məclisin 70-dək deputatı iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, hazırda Azərbaycan tarixi günlər yaşayır. Xalqımız və dövlətimiz sözün həqiqi mənasında Vətən müharibəsi aparır. Ölkəmiz bu müharibədə uğurlu hərbi əməliyyatlarla yanaşı, diplomatik, siyasi və informasiya cəbhəsində də mühüm uğurlar qazanmaqdadır. Spiker vurğulayıb ki, Prezident İlham Əliyevin zəngin siyasi təcrübəsi, yüksək diplomatik səriştəsi və qətiyyəti sayəsində Azərbaycan düşmənə bütün cəbhələrdə böyük məğlubiyyətlər yaşadır. Sahibə Qafarovanın sözlərinə görə, Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatların qarşısının alınması, şanlı Ordumuzun parlaq əks-hücum əməliyyatları hər birimizi fərəhləndirir, qürurlandırır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin yeni şanlı tarixi yazılır. Ordumuzun zəfər yürüşü zamanı şəhidlərimizin də olduğunu vurğulayan Spiker Allahdan şəhidlərimizə rəhmət, yaralılara şəfa diləyib.

Milli Məclisin Ermənistanın 27 sentyabrdan başlayaraq törətdiyi hərbi təxribatlar, həmçinin Gəncəni və digər şəhər və rayonlarımızı artilleriya və raketlərdən atəşə tutması ilə bağlı milli parlamentlərə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanladığını bildirən Sahibə Qafarova məlumat verib ki, parlament rəhbərliyinin və dostluq qruplarının adından 88 ölkənin parlamentlərinə 130, həmçinin 11 beynəlxalq təşkilata məktublar göndərilib. Müraciətlərdə baş verənlərlə bağlı geniş məlumatlar verilib və beynəlxalq ictimaiyyət tərəfindən bu hadisələrə adekvat münasibətin bildirilməsinə çağırış olunub. Onun sözlərinə görə, artıq bəzi ölkələrin parlamentləri ölkəmizə öz dəstəklərini ifadə ediblər. Həmçinin Sahibə Qafarova bu müddət ərzində bir sıra ölkələrin spikerləri və beynəlxalq təşkilatların rəhbərləri ilə telefon danışıqları apardığını, 10-a yaxın ölkənin səfirləri ilə görüşlər keçirdiyini, onlara Ermənistanın təcavüzü və təxribatları haqqında ətraflı məlumat verildiyini diqqətə çatdırıb.

Sədr bu müddətdə Milli Məclisin əksər deputatlarının müxtəlif xarici ölkələrin media orqanlarında erməni vandalizminin ifşa olunması, sosial şəbəkələrdə xüsusi fəallıq nümayiş etdirməsinin təqdirəlayiq olduğunu bildirib. Həmçinin məlumat verilib ki, Milli Məclisin Sədri, Sədr müavinləri, deputatlar, parlament Aparatının və İşlər idarəsinin kollektivləri Silahlı Qüvvələrə Yardım Fonduna 360 min manat ianə ediblər.

Çıxışında daha sonra ölkəmizdə həyata keçirilən siyasi islahatlar və onların uğurlu nəticələri barədə məlumat verən Spiker qeyd edib ki, Azərbaycanın dinamik inkişafını şərtləndirən mühüm məsələlərdən biri ardıcıl həyata keçirilən islahatlardır. Bu islahatlar ölkəmizin daha da güclənməsinə xidmət edir. "Əlbəttə ki, hər bir inkişaf və tərəqqinin əsasında uğurlu islahatlar dayanır və biz Azərbaycanın müsbət nümunəsində bunu aydın şəkildə görürük", - deyən Sahibə Qafarova qeyd edib ki, ölkəmizdə həyata keçirilən islahatların mühüm bir hissəsini siyasi islahatlar təşkil edir. Bu islahatlar demokratikləşmə prosesinin daha uğurlu həyata keçirilməsini təmin edir, eyni zamanda, siyasi münasibətlər sistemində yeni keyfiyyət göstəricilərinin meydana gəlməsini şərtləndirir. O bildirib ki, bu gün Azərbaycanda siyasi sistemin komponentləri arasında müsbət münasibətlər qurulub.

Sonra Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev çıxış edib. O, dövlətimizin başçısı tərəfindən aparılan siyasi-hüquqi islahatlar və onların nəticələrindən danışaraq, ölkədə yeni siyasi konfiqurasiya, qabaqcıl siyasi mədəniyyət və dialoq mühitinin formalaşdığını, qısa müddət ərzində faktiki fəaliyyətdə olan 52 partiyadan 51-i ilə görüş keçirildiyini, 2011-ci ildən sonra ilk dəfə 6 siyasi partiyanın dövlət qeydiyyatına alındığını, 11 siyasi partiyanın qurultayların keçirildiyini və nəticələrinin dövlət qeydiyyatına alınmaqla fəaliyyətlərinə legitimlik gətirildiyini bildirib. Şöbə müdiri dövlətçiliyin təməl prinsipləri ətrafında milli vəhdətin dərinləşməsi kimi məsələlərə toxunaraq, siyasi partiyaların ərazi bütövlüyümüzün bərpası üçün mübarizədə həmrəylik nümayiş etdirməsini və 32 illik fəaliyyət tarixində ilk dəfə olaraq 51 partiyanın vahid mövqe ilə Ali Baş Komandanı birmənalı dəstəkləmələrini və onun atdığı addımları müdafiə etmələrini, habelə bu partiyalar tərəfindən beynəlxalq təşkilatlara ünvanlanmış Azərbaycanın haqq səsini əks etdirən birgə müraciətləri xüsusi vurğulayıb.

Ədalət Vəliyev VI çağırış Milli Məclisin formalaşmasında və ötən müddət ərzində həyata keçirdiyi fəaliyyətdə nəzərəçarpan mütərəqqi yenilikləri qeyd edərək, qanunverici orqanda sağlam, demokratik mühit yarandığını, dövlət əhəmiyyətli məsələlərə vaxtında reaksiya verildiyini, parlamentin nüfuzunun həm ölkədə, həm də xaricdə yüksəldiyini bildirib.

Şöbə müdiri, həmçinin qanunverici orqanın fəaliyyətinin icra hakimiyyəti ilə qarşılıqlı əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə danışaraq, indiyədək Milli Məclisin rəhbərliyi və deputatları ilə, o cümlədən parlamentdə təmsil olunan siyasi partiya nümayəndələri ilə müxtəlif formatlarda həm qrup, həm də fərdi görüşlər keçirildiyini, əməkdaşlıq perspektivlərinin müzakirə olunduğunu qeyd edib. Ədalət Vəliyev deputatların seçiciləri ilə işin yüksək səviyyədə təşkili üçün icra hakimiyyəti orqanlarına verilmiş aidiyyəti tapşırıqlar barədə məlumatlandıraraq, dövlətimizin başçısının göstərişinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri ilə keçirilən görüşlərdə, habelə yerli icra hakimiyyəti başçılarını qəbul edərkən bu məsələləri xüsusi diqqətə çatdırdığını, deputat müraciətlərinin vaxtında və hərtərəfli cavablandırılmasının təmin edilməsi məqsədilə 154 dövlət orqanında (qurumunda) rəhbər müavini səviyyəsində əlaqələndirici şəxslərin müəyyən edildiyini bildirib. Eyni zamanda, vətəndaş məmnunluğunun daha da yüksəldilməsi üçün deputatlara dair mövcud gözləntilər diqqətə çatdırılıb.

Prezident İlham Əliyevin Azərbaycan xalqına 4 oktyabr və 9 oktyabr tarixlərində etdiyi müraciətlərin ölkənin müqəddəratının inamlı əllərdə olduğunu bir daha sübut etdiyini, Vətənini sevən hər bir azərbaycanlıya qürur və iftixar hissi yaşatdığını qeyd edən şöbə müdiri Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qətiyyətli döyüşlər apardığı bu günlərdə hər kəsin yüksək ruh yüksəkliyi və vətənpərvərlik nümayiş etdirərək Ordumuza, Ali Baş Komandana dəstək vermək niyyətində olduğunu deyib. O, həmçinin Birinci vitse-prezident xanım Mehriban Əliyevanın istər pandemiya ilə mübarizə, istərsə də Ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin, çağırışlarının və bəyanatlarının milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfə verdiyini bildirib.

Daha sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, deputatlar - Vahid Əhmədov, Azay Quliyev, Rüfət Quliyev, Aqiyə Naxçıvanlı, Elman Nəsirov, Aqil Abbas, Azər Badamov və Nəsib Məhəmməliyev çıxış ediblər. Çıxışlarda ölkə Prezidenti tərəfindən aparılan çoxşaxəli islahatların gətirdiyi müsbət nəticələr, Milli Məclisin bu islahatlar prosesində iştirakı və verə biləcəyi töhfələr, eləcə də parlamentin icra hakimiyyəti orqanları ilə daha sıx əməkdaşlıq qurması perspektivləri müzakirə edilib, aidiyyəti təkliflər səsləndirilib. Deputatlar, həmçinin Ali Baş Komandanın atdığı hər bir addımı müdafiə etdiklərini, rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa edildiyi bu şərəfli günlərdə bütün səylərini onun dəstəklənməsinə yönəltdiklərini, bu işi inamla davam etdirəcəklərini diqqətə çatdırıblar.

Tədbirin sonunda Ədalət Vəliyev çıxışlar zamanı səsləndirilən bütün təkliflərin diqqətlə öyrəniləcəyini və Milli Məclis rəhbərliyi ilə ətraflı müzakirə ediləcəyini bildirib. O, həmçinin bütün cəmiyyətimizdə olduğu kimi, Milli Məclisdə də hökm sürən yüksək ruh yüksəkliyinin, Ali Baş Komandana olan sonsuz etimadın və həmrəyliyin Böyük Qələbəyə nail olmağımız yolunda əhəmiyyətini vurğulayaraq, işğal edilmiş bütün torpaqlarımızın Prezident İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad olunacağına, həmin ərazilərdə bütün maddi-mənəvi sərvətlərimizin bərpa ediləcəyinə, yeni həyat qurulacağına əminliyini ifadə edib.

# Ərdoğan və Putin Qarabağ məsələsini müzakirə ediblər



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. AZƏRTAC xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin Dağlıq Qarabağ məsələsinin uzunmüddətli həllinə tərəfdar olduğunu ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, Türkiyə istər Minsk qrupu daxilində, istərsə də ikitərəfli əlaqələr çərçivəsində Ermənistan-Azərbaycan məsələsinin dayanaqlı həll olunmasına tərəfdardır.

# Erməni qadından Paşinyana: Rədd ol Azərbaycan torpaqlarından!

***Azərbaycanda yaşayan erməni əsilli vətəndaşımız Ermənistanın baş naziri Nikol Paşinyan və erməni xalqına səslənib. 78 yaşlı Tovuz sakini Alvina Marqosyan Ermənistan ordusunun əzəli Azərbaycan torpaqlarından, Qarabağdan çıxmasını tələb edib. 58 ildir ölkəmizdə yaşayan erməni qadın özünü azərbaycanlı hesab edir və arzu edir ki, son nəfəsinədək Qarabağın dilbər güşəsi Şuşada yaşasın.***



Gördüyünüz bu qadın erməni əsilli Azərbaycan vətəndaşıdır. 79 yaşlı Marqosyan Alvina Mnasakan qızı. Hazırda Adı Asya çağırılan qadın 1941-ci ildə Ermənistanda, Şəmşəddil mahalında dünyaya göz açıb. 18 yaşında Tovuzun Aşağı Quşçu kənd sakini Kamal Bağırovla ailə qurub. 58 ildir Aşağı Quşçuda yaşayır. Ailəlidir, beş övladı, 20 nəvəsi, 9 nəticəsi var. Deyir, erməni olsa da Tovuza köçən gündən özünü azərbaycanlı hesab edir. Bu gün Azərbaycanın haqq davasını, Böyük Vətən müharibəsini anbaan izləyən Alvina Marqosyan erməni xalqını Nikol Paşinyanın hiyləsinə uymamağı çağırır. Erməni əsgərinə isə ölmək istəmirsənsə Azərbaycanın əzəli dədə-baba torpaqlarından geri çəkilməyi məsləhət görür.

Alvina Marqosyan Nikol Paşinyanı Adolf Hitlerlə müqayisə edir. Bildirir ki, günahsız əhalini işğalçı mövqeyində həlak olmağa yalnız Hitler göndərirdi. Günahsız əhalinin də müxtəlif işgəncələrlə öldürülməsi fərmanını verirdi. Paşinyan da bu gün ondan geri qalmır. Ahıl nənə Ermənistan ordusunun Gəncə, Tərtər, Goranboy, Ağcabədi, Ağdam, Beyləqan və digər şəhərlərimizdə dinc sakinlərin hədəfə almasını da acizlik kimi dəyərləndirib. Alvina Marqosyan haqq döyüşü aparan Azərbaycan ordusuna uğur diləyərək sonuncu arzusunu da bizimlə bölüşüb. Deyir ki, Qarabağı tamlığı ilə azad görməmiş ölmək istəmir. Arzu edir ki, son nəfəsinədək qarabağın dilbər güşəsi Şuşada yaşasın.

# Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkəti dayandırılacaq




Bəzi şəhər və rayonlarda xüsusi karantin rejimində əlavə şərtlər qüvvəyə minib. AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin 387 nömrəli Qərarına əsasən, Gəncə, Yevlax, Mingəçevir, Lənkəran, Şəki, Şirvan şəhərlərində və Göygöl, Samux, Sabirabad, Quba rayonlarında:

- 17 oktyabr saat 00:00-dan 19 oktyabr saat 06:00-dək;
- 24 oktyabr saat 00:00-dan 26 oktyabr saat 06:00-dək;
- 31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılır.

# Nikol Paşinyan: "Əsgərlərimizə ağlayıram"



"Hərbi əməliyyatlar dövründə Ermənistanın silahlı qüvvələri böyük itkilər verib". SİA erməni KİVİ-ərinə istinadən xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan xalqa müraciətində deyib.

# Vüqar Rəhimzadə: "Bu gün Azərbaycan siyasi və hərbi şərtləri diktə edən tərəfdir"



"Tarixi günlərini yaşayan Azərbaycanın sentyabrın 27-dən Ermənistanın növbəti təxribatına cavab olaraq cəbhə xəttində həyata keçirdiyi hərbi əməliyyatlar işğal olunmuş torpaqlarımızın bir qisminin azad edilməsi ilə nəticələndi. Artıq Cəbrayıl şəhəri, Hadrut qəsəbəsi, Murovdağ zirvəsi, Suqovuşan su anbarı, onlarla kənd, strateji yüksəkliklər ordumuzun nəzarətindədir. İndi həmin ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Bu əməliyyatlar sübut etdi ki, Azərbaycan Ordusu Cənubi Qafqazın ən mükəmməl döyüş qabiliyyətinə malik olan hərbi gücüdür. Eyni zamanda, cənab Prezident İlham Əliyev bütün dünyaya sübut etdi ki, bu münaqişə dondurulmuş qala bilməz və Azərbaycan istənilən an status-kvonu dəyişmək iqtidarındadır. Artıq bu gün status-kvo yoxdur və Azərbaycan siyasi və hərbi şərtləri diktə edən tərəfdir". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində Ermənistanın danışıqların formatını dəyişdirmək kimi iddialarının üzərindən birdəfəlik xətt çəkildi,Paşinyan artıq 7 şərt irəli sürmür, ona diktə edilən şərtləri qəbul etmək məcburiyyətində qalıb: "Bu günədək atılan addımlar və sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatları dövlət başçısının "Biz nəyi nə zaman edəcəyimizi yaxşı bilirik" fikirlərinin tam əsaslı olduğunu təsdiq etdi. Hazırkı reallıq ondan ibarətdir ki, artıq münaqişənin "hərbi yolla həlli yoxdur" fikri alt-üst olub,status-kvo dəyişib.Cənab Prezident İlham Əliyev mükəmməlsiyasi gedişlərlə regionun geosiyasi mənzərəsini yenidən formalaşdırdı. Beləliklə dəbundan sonrakı istənilən proseslər Azərbaycanın maraqlarını təmin etməlidir. Əgər Ermənistan bu günə qədər baş vermiş hərbi əməliyyatlar nəticəsində yaranmış mənzərədən nəticə çıxarmasa, danışıqlar yolu ilə işğalçı siyasətinə son verməsə, təcavüzkarın hərbi yolla cəzalandırılması davam edəcək".

# Baydendən ermənilərə ŞOK: "Ermənistan Qarabağı əbədi işğal altında saxlaya bilməz"



"Mən Qarabağda atəşkəs rejimin pozulmasından çox narahatam". SİA xəbər verir ki, bunu ABŞ prezidentliyinə namizəd Cozef Bayden deyib. "Pilotsuz uçan aparatlar, minaatanlar və uzaq məsafəli artilleriya hər iki tərəfdən yüzlərlə həyatı alır. Son gərginlik dönəmi ərzində Tramp administrasiyasının prosesə cəlb edilməməsi və passivliyi anlaşılmazdır. Hərbi fəaliyyətlərin 27 sentyabrda yenilənməsindən sonra nə Prezident Tramp, nə dövlət katibi Pompeo Ermənistan və Azərbaycan rəhbərlərinə zəng etməyib", deyə Bayden bildirib.

Baydenin sözlərinə görə, ABŞ Moskvanın diplomatiya aparmasına izn vermək yerinə özü maksimal şəkildə prosesə cəlb olunmalı, savaşın deeskalasiyasına çalışmalı idi. "Tramp administrasiyası bəyan etməlidir ki, konfliktin hərbi yolla məcburi həllinə yol vermək olmaz. Ermənistan anlamalıdır ki, Dağlıq Qarabağ ətrafındakı rayonları əbədiyyən işğal altında saxlaya bilməz və atəşkəsin imzalanmasından konfliktin həlli ətrafında etibarlı danışıqlar başlanmalıdır", deyə ABŞ prezidentliyinə namizəd Cozef Bayden bəyan edib.

***İnam Hacıyev***

# Ermənistan terrorçu dövlət olduğunu növbəti dəfə nümayiş etdirdi



*Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi*

***- Nurlana xanım, məlum olduğu kimi, işğalçı Ermənistan humanitar atəşkəs haqqında razılaşmanı kobud şəkildə pozaraq böyük şəhərlərimizi, dinc əhalini ağır silahlardan atəşə tutur. Buna münasibətinizi bimək istərdik...***

- Ermənistan terrorçu dövlət olduğunu növbəti dəfə nümayiş etdirdi. Rusiyanın təşəbbüsü ilə Moskvada humanitar atəşkəsin əldə olunmasından heç bir neçə saat keçməmiş, Mingəçevir və Gəncə şəhərləri Ermənistan ərazisindən gecəyarı ballistik raketlərlə atəşə tutuldu. Cənubi Qafqazın əsas enerji infrastrukturu mərkəzi olan Mingəçevir SES-i hədəf almış raketlər havada zərərsizləşdirilsə də, Gəncəyə atılmış raket, əfsus ki, böyük dağıntılar törətdi, günahsız insanların həyatına son qoydu. Terroru təcavüzkar xislətinə uyğun olaraq özünün əsas dövlət siyasətinə çevirmiş Ermənistan 1992-ci ilin 26 fevral gecəsi Xocalıda törətdiyi soyqırımı bu dəfə də Gəncədə təkrarladı. 350 minə yaxın əhalisi olan, müxtəlif xalqların nümayəndələrinin əsrlərlə mehriban şəraitdə yaşadıqları Gəncə şəhərinə vurulan raket zərbəsi nəticəsində 9 mülki vətəndaşımız həlak oldu. Aralarında azyaşlı körpələr, qadınlar da olmaqla 34 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri aldı.

Gəncəyə raket hücumunun Ermənistanın Vardenis rayonundan həyata keçirildiyi artıq dəqiqdir. Düşmən törətdiyi bu beynəlxalq cinayətin cavabını təbii ki, artıqlaması ilə alacaq. Ermənistanın hərbi siyasi rəhbərliyi Gəncədə həlak olan, sağlamlığını itirən o insanların şəxsində ümumiyyətlə bəşəriyyətə qarşı törətdiyi cinayət əməllərinin məsuliyyətindən qaça bilməyəcək. Çünki güclü havadarları da onun dünyada tanınmış məkrli, hiyləgər, çirkin simasını örtbasdır edə bilməyirlər.

İşğalçı Ermənistanın təxribatlarına qarşı müzəffər ordumuzun əks-hücum əməliyyatları həyata keçirərək torpaqlarımızın bir hissəsini azad etdiyi əvvəlki günlərdə də düşmən Gəncəni və çoxsaylı mülki vətəndaşlarımızın olduğu başqa yaşayış məntəqələrimizi artilleriya zərbələrinə məruz qoyub. Nəticədə, təkcə son bir neçə gün ərzində 41 nəfər mülki vətəndaşımız həyatını itirib. 200 nəfərdən çox mülki şəxs isə yaralanıb. Şəhərlərimizdə, o cümlədən, Gəncə şəhərində çoxsaylı obyektlərə güclü ziyan dəyib.

Gəncəyə insan itkiləri ilə nəticələnən son raket hücumunun humanitar atəşkəs haqqında Moskva razılaşmasından az sonra baş verməsi isə bütün dünyada xüsusilə böyük hiddət doğurur. Bu, Ermənistan rəsmilərinin beynəlxalq hüquq normaları, Rusiyanın vasitəçilik təşəbbüsləri kimi öz imzalarına da hörmət etmədiklərini göstərir. Bizim nə qədər həyasız, azğın bir düşmənlə mübarizə apardığımızın mənzərəsini müəyyənləşdirir.

Azərbaycan Respublikasının Prezidenti Ermənistanın bu azğınlığını erməni faşizminin daha bir təzahürü kimi qiymətləndirib: "Ermənistanın Gəncəyə raket hücumu Rusiyanın vasitəçiliyi ilə aparılmış danışıqlara hörmətsizlik və erməni faşizminin növbəti təzahürüdür. Bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!" Bütün bunlar bir daha sübut edir ki, işğalçı ölkənin rəhbəri qan tökmək hərisliyi ilə xalqını, çoxu muzdlulardan ibarət ordusunu məhv olmaq faciəsindən xilas etmək istəyən Rusiyanın imicini, bütün dünyada qəbul edilmiş müharibə qanunlarını ayağı altına alıb pozaraq heç bir şeyin fərqinə varmadan, qəddarlıq və dəlilik səviyyəsinə çatmış adi bir ermənidir.

***- Ermənistandan fərqli olaraq, mülki əhali Azərbaycan Ordusunun hədəfi deyil...***

- Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə birmənalı şəkildə məhəl qoymaması, mülki əhalinin üzərinə raketlər yağdırması dünya ictimaiyyəti tərəfindən ciddi şəkildə qınanmalıdır. Beynəlxalq ictimaiyyət bunun sıradan bir hadisə yox, dövlət səviyyəsində törədilmiş terror əməli, soyqırım, bəşəri cinayət olduğunun fərqinə varmalıdır.

Gəncə şəhəri cəbhə zonasından xeyli kənarda yerləşir. Hücum nəticəsində dağılan çoxmənzilli yaşayış binası hərbi obyekt deyil. Orada həlak olan 9 nəfərin, yaralanan 34 nəfərin hər biri silahsız, dinc sakindir. Bu insanların yeganə günahı azərbaycanlı olmalarıdır. Azərbaycan vətəndaşı statusu daşımalarıdır. Vəhşiliyi heç bir sərhəd tanımayan Ermənistana "dur" deməyin artıq vaxtı deyilmi?! Özü durmayacaq, onu durdura bilən Azərbaycan dövlətini, Azərbaycan xalqını da dayandırmaq mümkün olmayacaq.

Əlbəttə, ən müasir silahlara, yüksək döyüş qüdrətinə malik Azərbaycan ordusu bunu dünya ictimaiyyətinin əvəzindən edib düşmənin cavabını beşqat artıq verərək Ermənistanın bütöv şəhərlərini, kəndlərini bir neçə saatın içində viran qoya bilər. Amma biz Ermənistanın dövlət səviyyəsində törətdiyi vəhşilikləri heç zaman özümüzə rəva bilmərik. Çünki müharibəni də insan kimi aparmağa müdrik dövlətimiz, mütərəqqi xalqımız, güclü ordumuz var. Mülki əhali heç zaman Azərbaycan ordusunun hədəfi olmayıb və bu gün də deyil. Çünki Azərbaycan qoşulduğu başqa beynəlxalq sənədlər kimi hərbi münaqişələrlə bağlı hamılıqla qəbul edilmiş normalara da sayğı göstərir. Müharibənin vəhşilik, insanın insanlıq həddindən çıxması anlamına gəlməsi həqiqətini dərk edir.

Azərbaycan hər zaman fərqindədir ki, hərbi əməliyyatların da öz qayda-qanunları, normaları var. Ordumuz düşmən təxribatlarına cavablarında, həyata keçirdiyi bütün hərbi əməliyyatlarda bu normalara riayət etdiyini sübuta yetirib. Azərbaycan öz sözünə, imzasına da hər zaman sadiqdir. "Bizim sözümüz də imzamız qədər keçərlidir" deyir, cənab İlham Əliyev. Onun ürəkdən gələn qətiyyətlə dediyi hər kəlməsi xalqının ürəyindən tikanlar çıxarır, qələbəyə sarsılmaz əminlik yaradır.

Dövlət rəhbərimiz hətta imzasız, sənədsiz verilən sözlərə, əldə edilmiş razılaşmalara da sadiqlik nümayiş etdirir. Qarşısındakılardan da bunu gözləyir, verdikləri sözlərlə, sənədlərə qoyduqları imzalarla necə davranacaqlarını təmkinlə izləyərək onlara şans verir. Bununla göstərir ki, "siyasətdə məqsəd vasitəyə haqq qazandırır" deyənlər əslində siyasəti çirkaba bulayan haqsız və cılız adamlardır. Comərdlik, verilən sözü axıra qədər tutmaq, inam əslində adi insani münasibətlərdəki qədər siyasətdə də ən ali dəyərlərdir. Amma bu dəyərləri də ancaq güclü, qətiyyətli liderlər, öz xalqına arxalanan,riyakarların cılız əməllərindən çəkinməyən, bu riyakarlıqların cəzasını vermək iqtidarında olan bütöv şəxsiyyətlər qoruya bilərlər. İlham Əliyevi dünya siyasətinin parlaq, nüfuzlu liderlərindən biri edən, ona hər kəsin sevgi və rəğbətini qazandıran, bu siyasətə dünyanı mat qoyan da elə peşəkarlığı ilə yanaşı, həm də malik olduğu dəyərlərdir. Comərdliyidir, verdiyi sözü tutmasıdır, sözünə də, imzasına da hörmətlə, ehtiramla yanaşmasıdır, sözü ilə əməlinin vəhdətidir.

Əfsuslar olsun ki, biz şəxsiyyət etibarilə bu dəyərlərin tamam əksinə sahib olan, tarix boyu qol qoyduqları mənəviyyatsızlıqlarla həyatın dibinə enmiş bir düşmənlə üz-üzəyik. Erməni rəsmiləri oxşar riyakarlıqları, xəyanətləri, əldə edilmiş razılaşmaları pozmaq xislətini indiyə qədər təkrar-təkrar göstəriblər. Ona görə də Moskva razılaşmasından, humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan sonra Azərbaycanın bir sıra rayonlarına 548 mərminin (axı, bu silahları öz vəsaiti ilə əldə etsəydi, "bu qədər səxavətli" olmazdı) atılması faktı əsla təəccüblü deyil. Düşmən yaşayış məntəqələrimizin atəşə tutulmasını humanitar atəşkəs boyu davam etdirib və hazırda da eyni təxribatlara davam etməkdədir. Bu da Ermənistanın rəşadətindən deyil, acizliyindən irəli gəlir.

İşğalçı ölkənin özünə yer tapa bilməməsi şanlı ordumuzun vurduğu yaraların dərinliyindəndir. Ermənistan illərdir işğal altında saxladığı torpaqlarımızın bir qismindən qovulması, ordumuzun hətta Dağlıq Qarabağın inzibati ərazisinə daxil olan Hadrut qəsəbəsini düşməndən təmizləməsi reallığını sinirə bilmir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə düçar olması ilə barışmaq istəmir.

Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və İSESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın Ermənistanın Gəncəyə sonuncu raket hücumu ilə bağlı vətəndaşlarımıza müraciətində düşmən ölkənin bu vəhşiliklərinin dəqiq yozumu verilib: "Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir. Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.

Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər".

"...Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır", yazır Mehriban xanım.

Müraciətdə də göstərildiyi kimi, Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik, etinasızlıq nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün rüsvayçı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Azərbaycan Prezidenti Rusiyanın RBK kanalına müsahibəsində Ermənistanın öz azğın davranışlarını humanitar atəşkəs dövründə də davam etdirməsinin işğalçı ölkənin danışıqlar masasındakı itkilərindən irəli gəldiyini dolayısı ilə diqqətə çatdırdı: "...Erməni qüvvələri bir neçə istiqamətdə genişmiqyaslı əks-hücum cəhdləri göstərib, Hadrutu geri almağa, Cəbrayıl rayonunda, şimal istiqamətində bizim azad etdiyimiz əraziləri geri almağa cəhd göstərib. Yəni, onlar Moskvada tərəflərin razılığa gələ biləcəyini başa düşdüklərindən itirdiklərini və onlara məxsus olmayanları maksimum həcmdə özlərinə qaytarmağa çalışıblar. Buna görə də atəşkəs rejiminin möhkəmliyinin əsas amili bu olacaq ki, Ermənistan bu ərazilərin bizdə olması ilə, onun həmin əraziləri bir daha heç vaxt görməyəcəyi ilə barışmalı və bunu hərbi yolla geri almağa heç bir cəhd göstərməməlidir".

***- Sizcə, erməni tərəfinin qeyri-insani hərəkətləri əslində, təcavüzkarın sonunu yaxınlaşdırırmı?***

- Nəticə etibarilə Ermənistan bu antihumanist addımları ilə öz acınacaqlı aqibətini daha da yaxınlaşdırır. Döyüş meydanlarında Azərbaycan ordusunun sarsıdıcı zərbələri qarşısında mövqelərini əldən verib qaçdığı kimi, diplomatik meydanda da geri çəkilməyə məcbur olur. Ermənistanın gəlmiş hərbçiləri əzəli və əbədi torpaqlarımızdan iti qovan kimi qovan (bu adı özü qazanıb) Azərbaycan dövləti diplomatik arenada da Ermənistanın yalançı, riyakar rəhbərliyinin qoparağını götürür. Bir el misalımızda deyildiyi sayaq, "yalançını mənzilinədək qovarlar".

Moskva görüşündə masa arxasında əyləşmək, Ermənistana sonuncu şans vermək Azərbaycana məhz bunun üçün lazım idi. Azərbaycan bununla münaqişənin sülh danışıqları ilə, ölkəmizin ərazi bütövlüyü, beynəlxalq hüquq normaları çərçivəsində həllinə sadiqliyini növbəti dəfə nümayiş etdirdi.

Humanitar atəşkəsə Azərbaycanın birtərəfli qaydada "yox" deməsi Ermənistanın mövqeyini gücləndirmiş olardı. Bu baxımdan rəsmi Bakının Moskva görüşünü qəbul etməsi və gərgin danışıqlarda iştirakı doğru addımdır. Görüşün dörd bəndlik yekun razılaşma sənədində atəşkəsin Azərbaycanın istəyi ilə sırf humanitar məzmun daşıması isə o deməkdir ki, ölkəmiz Ermənistanın davranışlarını nəzərə alaraq istənilən an hərbi əməliyyatları bərpa edə bilər. Bundan başqa, sənədə əsasən, Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlayırlar. Bu da Azərbaycanın diqtə etdiyi daha bir şərt və əldə etdiyi daha bir diplomatik uğurdur.

Ardı Səh. 11

# Ermənistan terrorçu dövlət olduğunu növbəti dəfə nümayiş etdirdi

Əvvəli-Səh-10

Cənab İlham Əliyevin Rusiyanın RBK kanalına müsahibəsində verdiyi izahlardan da gördük ki, yekun sənəddə Azərbaycan bütün prinsipial şərtlərini qəbul etdirə bilib. Daha doğrusu, tərəflər Azərbaycanın öz prinsipial mövqeyindən geri çəkilmədiyini görərək şərtləri qəbul etməli olublar. Çünki Ermənistanın yeni rəhbərliyi mövcud status-kvonu saxlamaqdan ötrü danışıqların formatını dəyişməyə cəhd göstərir, aparılan danışıqların Azərbaycan Respublikası ilə Dağlıq Qarabağdakı qondarma rejimlə keçirilməli olması barədə sərsəm bəyanatlar verirdi. Ordumuzun cəbhədəki parlaq qələbələrindən, uzun illərdir davam edən status-kvonu pozmasından sonra isə indi şərtləri haqlı olaraq məhz Azərbaycan diqtə edir.

Azərbaycan Ordusunun bu illər ərzində düşmənin qorumağa çalışdığı status-kvonu pozub işğalçıların əsas gücünü əlindən almasından sonra yaranmış yeni reallıqlara siyasi və diplomatik müstəvidə baxılması normal bir haldır. Hərbi əməliyyatlar danışıqlar prosesində də Azərbaycanın mövqeyini xeyli möhkəmləndirdi. Qeyd etdiyimiz kimi, artıq danışıqların gedişində şərtləri Azərbaycan müəyyənləşdirir və ölkəmizə qarşı hər hansı şərtlərin irəli sürülməsinin qəbuledilməzliyini hamı aydın dərk edir.

Bütün bu nəticələr Azərbaycana qarşı yönələn güclü təzyiqlər qarşısında əldə olunur. Prezident İlham Əliyev siyasi təzyiqlərə sinə gərərək məharətli və vaxtında atılan diplomatik addımları ilə Azərbaycana qarşı təzyiqləri dəf edir. Dövlət rəhbərimizin qətiyyətli mövqeyi, diplomatik məharəti Ermənistan və onun havadarlarının bir araya gəlib Azərbaycana qarşı vahid diplomatik cəbhə formalaşdırılmasına imkan vermir. Ölkəmiz hərb meydanında olduğu kimi, danışıqlar masasında da haqlı tərəf kimi görünür, öz haqlı mövqeyini qoruyub qətiyyətlə saxlayır.

***- Bir çox ekspertlər hesab edirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev regionun geosiyasi mənzərəsini dəyişir. Bu barədə sizin fikirlərinizi də bilmək maraqlı olardı...***

- Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyi həmişə ondan ibarət olub ki, ciddi mahiyyətli danışıqlar aparılmalı və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını nəzərdə tutan plan hazırlanmalıdır. Ermənistan öz təcavüzkar mövqeyindən geri çəkilməzsə, münaqişə sülh yolu ilə həllini tapmazsa, torpaqlarımızın hərb yolu ilə azad ediləcəyini bütün dünyanın şahidliyi ilə Azərbaycan hər zaman bəyan edirdi. Bu dəfə isə belə bir bəyanat reallıqda öz ifadəsini tapdı. Azərbaycan öz hərbi zəfərləri ilə “münaqişənin hərbi həlli yoxdur” tezisini tez-tez təkrarlayan Ermənistan və onun havadarlarının bu tezisini darmadağın etdi. Artıq təmas xətti deyilən anlayış yoxdur. Azərbaycan bununla bütün dünyaya göstərdi ki, münaqişəni birdəfəlik həll edə bilmək qüdrətindədir. Biz istər sülh, istərsə də müharibə olsun, ədaləti təmin edən hər iki varianta hazırıq.

Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyan Prezident İlham Əliyev bu maraqların onun üçün ən ali dəyər olduğunu hər zamankı kimi bir daha sübuta yetirdi. Eyni zamanda, uzun illərdir danışıqlar prosesində ciddi bir nəticə ortaya qoya bilməyən ATƏT-in Minsk qrupunu da yeni bir vəziyyət qarşısında qoydu. Etiraf edək ki, münaqişənin öz həllini tapmamasında və işğala əsaslanan status-kvonun qorunmasında Ermənistana xaricdən ciddi dəstək göstərilir, danışıqlar prosesi heç bir nəticə vermədən sadəcə danışıqlar xatirinə aparılırdı. Məqsəd isə tədricən işğalı Azərbaycan cəmiyyətinə unutdurmaq və torpaqlarımızın Ermənistan tərəfindən ilhaqına nail olmaq idi. Prezident İlham Əliyev isə xalqın gücünə, milli həmrəyliyimizə, ordumuzun qüdrətinə arxalanaraq qəti siyasi iradə nümayiş etdirməklə 30 illik bu riyakar oyunu pozdu. Azərbaycanın işğalla heç zaman barışmayacağını sübut etdi. ATƏT-in Minsk qrupu heyətinə mövcud reallıqları nəzərə alaraq yenidən baxılması, regionda sabitliyin, inkişafın əsas qarantlarından olan qardaş Türkiyənin də danışıqlar prosesində fəal mövqe tutması tələbini aktuallaşdırdı.

ATƏT-in Minsk qrupunun fəaliyyətinə artıq yenidən baxılmalıdır. Bu qrupda həmsədr statusunda çıxış edən Fransanın ermənipərəst mövqeyi, Azərbaycana qarşı qərəzli münasibəti hər kəsə bəllidir. Bu münasibət, son hərbi əməliyyatlar zamanı daha aydın şəkildə üzə çıxdı.

Rusiya mediasının son olaylara qeyri-obyektiv münasibəti, münaqişə ilə bağlı müzakirələrdə əməlli-başlı tərəf tutması, ATƏT-in Minsk qrupunun daha bir həmsədri olan Rusiyada da Azərbaycana münasibətin əfsuslar ki, birmənalı olmadığını göstərdi. Azərbaycan cəmiyyətində Rusiyaya olan xoş münasibətə, iki ölkə arasındakı böyük bir dövrün dostluq münasibətlərinə yaraşmayan və zidd olan bu yanaşmanın aradan qaldırılması üçün Rusiya da müəyyən ədalətli addımlar atmalıdır.

Son olaylar bir daha göstərdi ki, ölkəmizin təşəbbüskarı olduğu qlobal layihələrlə regionun sosial-iqtisadi mənzərəsini dəyişən Azərbaycan Prezidenti İlham Əliyev bu gün məntiqli diplomatik gedişləri ilə regionun geosiyasi mənzərəsini də dəyişməkdədir. Biz hansısa gözləntilərimizdə tələsə, nəticənin daha tez əldə olunmasını istəyə bilərik. Amma nəzərə almalıyıq ki, hansı addımın nə zaman atılacağını dövlətimiz, ölkə rəhbərimiz hamıdan yaxşı bilir. Cənab İlham Əliyevin bəyan etdiyi kimi: “Nəyi, nə vaxt, necə etmək lazımdır, bunu mən bilirəm!”.

Dövlət rəhbərimizin bu sözlərini bu günədək aparılan siyasət, atılan addımların qazandırdığı nəticələr sübuta yetirir. Bizim isə missiyamız, xalq olaraq daim dövlətimizin, Prezidentimizin yanında olmaq, milli həmrəyliyimizi qorumaq, obyektiv həqiqətlərimizi düzgün şəkildə cəmiyyətə və dünyaya çatdırmaq, informasiya müharibəsində də Azərbaycanın üstünlüyünü təmin etməkdir.

Mehriban xanım Əliyevanın xalqa müraciətində qeyd etdiyi kimi: “Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq!”

Haqq davasında qələbə gec-tez haqlı tərəfin olur. Bu davada haqlı olan bizik!

Qarabağ Azərbaycandır! Buna heç kimin şübhəsi olmasın.

## SƏS Media Qrupu Silahlı Qüvvələrə dəstək oldu

SƏS Media Qrupu Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna vəsait ayırıb. SİA-nın verdiyi məlumata görə, SƏS Media Qrupunun rəhbərliyi və kollektivin əməkdaşları işğal altında olan torpaqlarımızın azad edilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrə Yardım Fonduna 5000 (beş min) manat ianə edib.

Məqsəd düşmənin hərbi təxribatının qarşısının alınması, ölkəmizin ərazi bütövlüyünün, eyni zamanda mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri əks-həmlə tədbirlərinin həyata keçirilməsinə dəstək göstərməkdir. Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə Silahlı Qüvvələrimizin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb.

## Erməni ekspert: “Azərbaycanla müharibə edə bilmərik”



“Dağlıq Qarabağdakı iki qonşu ölkə arasındakı münaqişə hələ də davam edir. Azərbaycan bildirir ki, son günlərdə düşmən ordusu geri çəkilməyə başlayıb. Bu, separatçıların həm hərbi texnikada, həm də insanlarda ciddi itki verməsi ilə izah olunur”. SİA-nın verdiyi məlumata görə, bunu erməni hərbi ekspert deyib.

O bildirib ki, Azərbaycan hərbçiləri xəbərdarlıq ediblər ki, ermənilər yalnız “işğal olunmuş torpaqları” dərhal tərk etsələr məhv olmaqdan qurtula bilərlər: “Bütün dünya mütəxəssisləri son zamanlarda iki ölkənin ordularını müqayisə edirlər. Burada Azərbaycanın üstünlüyü şübhə doğurmur. Azərbaycanla müharibə edə bilmərik. Hətta Ermənistan açıq şəkildə bəyan edir ki, düşmən ordusu “Rusiyadan sonra MDB məkanında ən yaxşısıdır”. Ermənistanla bağlı isə bunu demək çətindir. Çünki, bizim ordumuz talan edilib”.



## Avia.pro: “Azərbaycanın dron kamikazdesi Ermənistan ordusunun “İsgəndər”ni məhv edib”

“Bu gün Azərbaycanın dron-kamikadzesi ən azı Ermənistanın silahlanmasında olan bir “İsgəndər” operativ-taktiki raket kompleksini (OTRK) məhv edib”. SİA xəbər verir ki, bu barədə Avia.pro aviaxəbər portalı yazır.

Portal yazır ki, söhbət böyük ərazidə yerləşdirilmiş üç operativ-taktiki raket komplekslərindən gedir ki, onların arasında bir “Toçka-U” və iki “İsgəndər” var.

Portalın yazdığına görə, dron vasitəsi ilə əldə edilmiş fotoşəkillərə nəzər salarkən, söhbətin həqiqətən də “İsgəndər” OTRK-dən getdiyi görünür və Ermənistanın onu ilk dəfə istifadə etmək cəhdi kompleksin itkisi ilə nəticələnib. “Açıq mənbələrin məlumatlarına görə, Ermənistan silahlı qüvvələrinin 4 ədəd “İsgəndər” kompleksi var”, deyə portal qeyd edir.

**Rövşən RƏSULOV**

# Terror aktları: Bəşəriyyətə, insanlığa qarşı çevrilmiş cinayət

## *İlk öncə diqqətinizi terrorçuluqla bağlı bəzi məsələlərə yönəltmək istəyirəm*

***Terror - fiziki, zorakılıq, siyasi rəqiblərini dinc, mülki əhalinin xüsusi amansızlıqla qətlə yetirilməsi, mülki obyektlərin, dini, mədəni ocaqların, mədəniyyət abidələrinin dağıdılması məqsədlərinə xidmət edən cinayət tərkibli hadisədir, aksiyadır.***



*İbrahim Zeynalov,*
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin professoru*

**Terrorçu** - hər hansı formada terror fəaliyyətini həyata keçirən və ya keçirilməsində iştirak edən şəxs və ya dövlət nəzərdə tutulur. Terrorçu dövlət dedikdə həmin dövlətin başçısının və hökumət rəhbərinin göstərişi əsasında terror aktının həyata keçirilməsi nəzərdə tutulur (məsələn: Ermənistan hökumət və dövlət başçısı - N.Paşinyan).

**Terror fəaliyyəti** - terror aksiyalarını təşkil etmə, planlaşdırma, hazırlanma və həyata keçirilmə, mülki və maddi obyektləri, mülki, dinc insanları məhv etmə və ya zədələmə, ziyan vurma, terror aksiyalarının həyata keçirilməsi məqsədilə qanunsuz, beynəlxalq hüquq normalarına zidd olan qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaratma, aksiyalarda iştirak etmə, bilərəkdən terror təşkilatlarını maliyyələşdirmə, yardım etmə ilə bağlı olan fəaliyyətdir.

### Bəs terrorizm nə deməkdir?

İctimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyət orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi surətdə çıxarılmasına, onlara bədən xəsarətləri yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə və ya digər ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəlmiş fəaliyyətdir.

**Terrorizmə qarşı mübarizə:** Burada nəzərdə tutulur: terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, terror nəticəsində vurulan zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyət terrorizmə qarşı mübarizə aşağıdakı məqsədlərlə həyata keçirilir: İnsan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilçəsi; terrorizmin aşkar edilməsi, qarşısının alınması, və terrorizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi; terrorizmin yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin aşkar edilməsi və ləğv edilməsi.

Gəncədə törədilən terror aktı, həm də vandalizmdir. Vandalizm - mədəni və maddi sərvətlərin, mülki əmlakın, obyektlərin və digər qurğuların, obyektlərin məhv edilməsi və ya zərər verilməsidir ki, burada göstərilən aktlar Gəncədə erməni terrorçu qrupunun dövlət səviyyəsində həyata keçirdiyi və cinayətdə özünü tam şəkildə göstərdi.

Onu da qeyd edək ki, beynəlxalq hüquq norma və prinsipləri və onun əsas müddəaları terror aktının həyata keçirilməsini göstərməklə, həm də qadağan edir. Terror aktlarının bütün növləri insan hüquqlarını qoruyan, müdafiə edən bütün konvensiyalarda, o cümlədən 1949-cu il Ümumdünya insan hüquqları bəyannaməsində qəti şəkildə pislənir. Terrorçuluğa qarşı müxtəlif cəza tədbirləri müəyyənləşdirilmişdir (qınaq, sanksiya və s.). Bu sahədə BMT TŞ-nın, Avropa İnsan Hüquqları Məhkəməsi, Beynəlxalq Cinayət Məhkəməsi və s. fəaliyyətində terrorizmə qarşı cəza tədbirləri başlıca təsir vasitəsidir.

### Bu gün dünyada fəaliyyət göstərən, müxtəlif terror aksiyalarını həyata keçirən böyük terror təşkilatları var. Onlara misal olaraq:

**1.** Məhəmməd Yusif tərəfindən 2002-ci ildə Nigeriyanın Borno ştatında yaradılan terror təşkilatlarının (şəriət tərəfdarları islamçılardan ibarətdir), Kəşmiri Hindistanının işğaldan azad etmək üçün Pakistanın dəstək verdiyi 1990-cı ildə qurmuş olduğu (məqsədləri islami yaymaqdır) təşkilatın, Kolumbiyada Fars təşkilatının (məqsədləri silahlı hərəkətlərə başçılıq etməkdir, mənası Xalq Qoşunu deməkdir,

**2.** 1980-ci ildən kokain ticarətinə girişmişdir.), 1980-ci ildə Usame Bin Laden tərəfindən yaradılan Əl-qaidə təşkilatının (Əl-qaidə törətdiyi aktları dünyanın ən qanlı və ən məşhur terror aktlarının başında gəlir).Yüksək səviyyəli intihar hücumları və xüsusilə Dünya Ticarət Mərkəzinə (ABŞ-da) hücumla dünyaya adlarını tanıtdılar. 19 il əvvəl 11 sentyabr 2001-ci ildə bu təşkilat ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində iri miqyaslı terror hadisəsi törədib. Terror aktının həyata keçirilməsi nəticəsində çox böyük dağıntı, qüllələrin çökməsi ilə yanaşı 3 minə yaxın sadə, dinc insanlar ölmüş, 6 mindən çox insan yaralanmışdır.

**3.** Tanınmış terror təşkilatlarından biri də Əfqanıstanda yaradılmış Taliban hərəkatçılarıdır. Bu təşkilatın əsası Sovet-Əfqanıstan müharibəsi zamanı (1978-1989-cu illər) qoyulmuşdur. Talibançıların ən təsirli aksiyalarından biri 2007-ci ilin ilk yayında hücum edərək 1700 Əfqan polisinin öldürülməsidir.

### İndi diqqətinizi Erməni Terror Təşkilatlarının dəhşətli və qanlı cinayətlərlə tamamlanan hərəkətlərinə cəlb etmək istəyirəm. Əvvəlcə bu terrorçu təşkilatların adlar:

**1."Armenakan"** partiyası: 1885-ci ildə yaradılıb. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törədib. İran və Rusiyada yaşayan ermənilərlə daha sıx əməkdaşlıq edir.

**2. "Hnçak" partiyası:** 1887-ci ildə Cenevrədə yaradılıb. Onun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaqdır. Partiyanın proqramının 4-cü bəndində göstərilir: "Qarşıya qoyulan məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".

**3. "Daşnaksütyun" - erməni federativ inqilab partiyası:** 1890-cı ildə Tiflisdə yaradılıb. Əsas qayəsi Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır.

**4. "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu"** (ASALA): 1975-ci ildə yaradılan təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. ASALA əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir.

**ASALA 1980-ci ilin aprelində birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini Livanda rəsmiləşdirmişlər. Beyrut şəhərində 28.08.1993-cü ildə açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir**

**1. "Geqaron":** 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılmışdır. Məqsəd Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk məşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı terror aktlarının keçirilməsidir.

**2. "Erməni azadlıq hərəkatı"** (AOD): 1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir.

**3. "Erməni azadlıq cəbhəsi":** 1979-cu ildə yaradılan bu terror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.

**4. "Orli qrupu":** 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

**5. "Erməni soyqırım ədalət komandosları":** 1972-ci ildə Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılıb. "Erməni soyqırımı ədalət komandoslarɪ"nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

**6. "Erməni birliyi":** 1988-ci ildə Moskvada yaradılmışdır. "ASALA" ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.

**7. "Demokratik cəbhə":** ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

**8. "Apostol":** 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

**Roma tarixçisi Tatsit yazırdı:** "Ermənilər istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və ziyankardır".

**İngilis səyyahı Vilson yazırdı:** "Ermənilər acgöz və tamahkardırlar, fitnəkar və araqarışdırandırlar, heç kəsi bəyənmirlər. Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər, intriqa yaratmağı sevirlər".

1918-1920-ci illərdə erməni Andronik, Hamazasp, Hayk, Dro, Nijde kimi quldur terrorçu dəstələrin başçıları Azərbaycan ərazisində dəhşətli vəhşiliklər, qəddarlıqlar etməklə kəndləri, yaşayış məntəqələrini dağıdır, yandırıb, yerli dinc sakinləri qəddarlıqla qətlə yetirdilər. Öldürücü qəddarlıqlar törədən zaman qocaya, qadına, uşaqlara, hətta körpələrə fərq qoymurdular.

Andranik-ermənilərin "milli qəhrəman" adlandırdıqları terrorçu cəllad öz quldur dəstələri ilə Eçmiədzinə gələrək yerli dinc əhaliyə divan tutmuş, qırmış, 84 kəndi yandırmışdır. 1918-ci ildə bu erməni terror başçılarının komandanlığı altında erməni quldur dəstələri Zəngəzurda 115, İrəvan quberniyasında 221, Yeni Bəyaziddə 84, Süzməlidə 75 yaşayış məntəqəsini tamamilə yandırırb yox edilmişdi.

1918-ci ildə bu erməni "qəhrəmanlarının" əmri və iştirakı ilə, bolşeviklərin yardımı ilə erməni cəlladları Azərbaycanda 50 mindən çox azərbaycanlının həyatına son qoymuşlar (Bakıda 15 min insanın).

Təkcə Göyçə mahalında erməni cəlladları 1919-cu ilin yazında 60 min sakini olan 22 kəndi yandıraraq dinc əhalisini qırmışdı.

**Ümummilli lider Heydər Əliyev 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda deyirdi:** "... Rusiyada baş vermiş 1917-ci il fevral inqilabından və oktyabr çevrilişindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırırdılar... Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir". Onların tarixdə satqın, xəyanətkar terroçu olduğunu bir daha sübut edir. Andraniklərin, Mikayanların, Nijdelərin Azərbaycana, onun dinc əhalisinə qarşı həyata keçirdikləri terror aksiyalarını, bu gün Paşinyan hökuməti davam etdirir. Fərq ondadır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu və uzaqgörənliklə həyata keçirdiyi ordu quruculuğu siyasəti nəticəsində ən müasir silahlarla təhciz olunmuş, ən müasir döyüş texnikasına, təlimlərinə yiyələnmiş güclü Azərbaycan ordusu yaradılmışdır. Bu gün Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücuma keçərək işğal altında olan torpaqlarımızın bir hissəsini-Cəbrayıl şəhərini, Horadiz qəsəbəsini, 34 kəndi, Murovdağ silsiləsini, Suqovuşanı, bir çox strateji əhəmiyyəti olan yüksəklikləri azad etmişdir. Təəssüf ki, svilizasiyalar tarixi saxtalaşdırmaqda davam edən dünya svilizasiyasının onlardan başladığını söyləyən, özlərini xristianların atası hesab edən erməni milli ideoloqları dünyanın ən qədim xalqları olan, dünyanın dövlətçilik tarixində çox böyük payı olan türkləri özünə düşmən sayan bir mühit yaratmağa çalışırlar.

*Ardı Səh. 13*

# Terror aktları: Bəşəriyyətə, insanlığa qarşı çevrilmiş cinayət

## *İlk öncə diqqətinizi terrorçuluqla bağlı bəzi məsələlərə yönəltmək istəyirəm*

Əvvəli-Səh-12

Dünya xalqları bir-birinə yaxınlaşdığı, əməkdaşlıq etdiyi, siyasi, sosial-iqtisadi və mədəni əlaqələrin inkişaf etdiyi hazırkı dövrdə də erməni təşkilatları, milli ideoloqları, hətta dövlət və hökumət başçıları səviyyəsində millətlər ararsında düşmənçiliyin, ədavətin saxlanılmağına cəhd göstərirlər, regional əməkdaşlığa mane olmağa, sabitliyi pozmağa çalışırlar və təhlükəsizliyi təhdid edirlər.

### Erməni cəlladı, terroristi faşist cəlladı Qaregin Nijde.

Q.Nijde kimdir?

Əslində Q. Nijde ikinci dünya müharibəsində alman faşistlərinə xidmət etmiş faşist cəlladı kimi tanınan terrorçu satqındır. Məhz o, İkinci Dünya müharibəsi illərində faşist Almaniyasının SS mühafizə alayında və alman ordusunda Sovet ordusuna qarşı xüsusi amansızlığı, qaniçənliyi ilə tanınan ermənidir. Nijde fəaliyyət göstərdiyi illərdə iki üzlüyü, satqınlığı, cəlladlığı, ruslara və yevreylərə nifrət bəsləməsi ilə Sovet ordusuna qarşı fəaliyyəti ilə Alman rəhbərliyinin nüfuzunu qazanmışdı.

Ermənistanın keçmiş və indiki rəhbərləri Q. Nijdenin və ona oxşarların kim olduqlarının fərqinə varmadan erməni faşizminə xidmət edən əməllərini ideallaşdırmağa çalışır, az qala onları "milli qəhrəman" səviyyəsinə qədər yüksəltməkdən utanmırlar.

Bu faşist ermənilərinə, əslində erməni xüsusiyyətlərini, tərbiyəsini, əxlaqını özlərində daha yüksək formada cəmləşdirən cəlladlara (Q.Nijde, Adranik və s.) abidə heykəl də ucaltmaqdan çəkinmirlər. Dünyanın mütərəqqi birliyi isə bunları görür, eşidir, amma nədənsə göz yumur. Fikirləşirsən, bütün bunların fəlsəfəsi nədir? Hətta indi belə Ermənistanın rəhbərləri, xüsusilə N.Pşinyan unudulmuş bu "qəhrəmanları" yada salmaqla mənsub olduqları etnik qrupda hamıdan şübhələnmə xofu yaradırlar. Həmçinin, Ermənistanın keçmiş prezidenti və 30 günlük baş nazir Serj Sarqsyanın hakimiyyəti dövründə faşist Qaregin Yegişeviç Ter-Arutyunyan (Qaregin Nijde) adi ilə ermənıyə Yerevanda abidə qoyulması, indiki baş nazir Nikol Paşinyanın bu hitlerçini təbliğ etməsi ermənilərin ki olduğunu, Rusiyanın müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cilddə dərc edilmiş müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: **"Əkskəşfiyyatçılar 114-cü Dromedar ober qrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Nijde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyan aşkar edilib həbsə alınıb O, Böyük Vətən müharibəsində Bolqaristan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edir, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Sovet ordusunun arxa cəbhəsinə atılmasında iştirak edib. Nijde, həmdə Avropanın yəhudi əhalisinə qarşı Holokosda iştirak edib. O, 1949-cu ildə Sovet İttifaqına qarşı döyüşən erməni legionu da təşkil etmişdir".**

Çox təəssüf ki, belə bir satqın cinayətkara, faşizmə qulluq edən terrorçuya 2016-cı ildə Yerevanda heykəl qoyulub. Bu, əlbəttə Ermənistanda faşizm meyllərinin, Nasizmin güclənməsi deməkdir. Üçüncü Reyx ilə əməkdaşlıq edən erməni faşisti Qaragin Nijdenin xatirəsinin əbədiləşdirilməsinə xidmət edən onun heykəlinin qoyulması ermənilərlə faşistlər arasında heç bir fərq olmadığını göstərir.

Erməni faşistləri də Alman faşistləri kimi dinc əhalinin, o cümlədən milli düşmən hesab etdikləri türk əhalisinin onun qocasına, qadınına, uşağına fərq qoymadan məhv etməyi özlərinə "şərəfli" vəzifə hesab edirlər. Erməni faşistlərinin quldur dəstələri tərəfindən XX əsrin əvvəllərin də və sonlarında həmçinin XXI əsrin ilk iki on illiyində Azərbaycanın Dağlıq Qarabağ, ətrafındakı 7 rayonun ərazisində, həmçinin 2020-ci ilin iyul-oktyabr aylarında da dinc mülki əhali, mülki obyektlər, dövlət, hökumət binaları, döyüş bölgəsində on kilometrlərlə uzaqlıqda yerləşən yaşayış məntəqələri, kəndləri, strateji obyektlər artilleriya və raket qurğularından, müharibə dövründə işlədilməsi qadağan olunan silahlardan atəşə tutulur. Hətta 2001-ci ildə ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində törədilmiş və 3 mindən artıq dinc əhalinin ölümünə səbəb olmuş, dəymiş zərərin həcmi 36 milyarda bərabər olan o dəhşətli terror aktına bənzər cinayət aktını erməni faşistləri 2020-ci ilin oktyabrın 11-də Gəncə şəhərində törətmişlər və nəticədə 10 nəfər dinc insanlar həlak olmuş, 40-a yaxın insan xəsarət almışdır.

Erməni terroçu faşistlərinin silahlı qüvvələrinin oktyabrın 11-i gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən 3 çoxmənzilli yaşayış binalarını "Tocka-U" raket sistemində atəşə tutmaqla cinayət aktı həyata keçirdilər. Bu terror aktı nəticəsində 4-ü qadın, 1-i uşaq olmaqla 10 nəfər həlak olub, 16 qadın, 6-sı uşaq olmaqla 40 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Həmçinin Gəncə hadisəsi zamanı 16 yaşlı Sevinc və qardaşı 8 yaşlı Hüseyn, digər bir uşaq Bəxtiyar hər iki valideynlərini itiriblər. Həmçinin Ermənistan silahlı faşistləri oktyabrın 11-də gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik stansiyasını növbəti dəfə hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən çox uzaqlarda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atılıb.

Qeyd edək ki, Erməni quldurlarının bu terror aktı, vandalizm hesab edilən bu cinayəti Rusioya Xarici İşlər nazirinin vasitəçiliyi və çağırışı ilə Azərbaycan və Ertməinistan Xarici İşlər nazirlərinin Moskvada 11 saat davam edən gərgin danışıqlarının nəticəsi olaraq əldə olunan, oktyabrın 10-u saat 12:00-da qüvvəyə minən humanitar atəşkəs rejiminin növbəti dəfə kobud şəkildə pozulmasıdır.

Atəşkəsin ilk dəqiqələrində etibarən Ermənistan cinayətkarları, faşistlərdən heçnə ilə fərqlənməyən silahlı qüvvələri Azərbaycanın şəhər və kəndlərini, müxtəlif yaşayış məntəqələrini, mülki obyektlərini, dinc əhalini atəşə tutmaqla, Ermənistanın siyasi-hərbi rəhbərliyi beynəlxalq hüququnun norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların əlavə protokollarını, habelə özlərinin yalvarışlı xahişləri əsasında razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, insanlıq əleyhinə yeni cinayətə əl atmaqdadır.

Bütün təhlillər göstərir ki, erməni terror aktları insanlığa və bəşəriyyətə, svilizasiyaya ciddi təhlükə və cinayətdir. Azərbaycana onun rayon, şəhər, kənd və yaşayış məntəqələrinə, ölkənin dinc əhalisinə qarşı terror aktlarının son və yeni mərhələsi XX əsrin 80-ci illərinin sonlarından başlamışdır və hazırda da davam edir. Birinci Qarabağ müharibəsində Dağlıq Qarabağın və ətraf rayonların azərbaycanlı dinc əhalisinə qarşı etnik təmizləmə, soyqırımı həyata keçirən, minlərlə uşaq və qadını qətlə yetirən Ermənistan dinc sakinlərə qarşı sistemli terror aktlarını 2020-ci ilin iyulun 12-dən başlayaraq daha qəddarcasına davam etdirir.

1994-cü il mayın 12-də əldə olunan və 2020-ci il sentyabrın 27-dək davam edən atəşkəs rejimi müddətində də Ermənistan dəflərlə Azərbaycanın mülki əhalisini hədəfə alıb, çoxlu sayda qocanın, qadının, uşağın ölümünə və yaralanmasına səbəb olan terror aktları törədilib.

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan tərəfindən təxribatların, terror aktların növbəti mərhələsi başladı. N.Paşinyan hökumətinin planlaşdırılmış və məqsədli törətməkdə davam edən terrorçu əməliyyatları Azərbaycanın dinc mülki əhalisinə, əhalinin sıx məskunlaşdığı şəhərlərə və yaşayış məntəqələrinə hücumıar yeni mərhələyə yüksələrək daha geniş miqyas alıb. Erməni terrorçularının bu cinayətkar əməliyyatları nəticəsində sentyabrın 27-dən oktyabrın - 13 dək aralarında məktəblilərdə olmaqla 42 mülki şəxs öldürülmüş, 206 nəfərdən artıq insan yaralanmış, 241 mülki obyekt yararsız hala düşmüş, 1479 yaşayış evi dağıdılıb, 66 çoxmərtəbəli bina dağıdılıb, 3 məktəbli həlak olmuşdur.

Çox təəssüf ki, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar, İnsan hüquqlarını müdafiə edən institutlar, özlərini demokratik dövlətlərin rəhbərləri, BMT - TŞ - nın üzvləri, Avropa İttifaqı, Avropa Şurasının üzvləri olan dövlətlər Ermənistanın beynəlxalq hüquqa və humanitar atəşkəs prinsiplərinə, 1949-cu il Cenevrə Konvensiyasının müddəalarına zidd olan bu əməllərinə münasibət bildirmirlər. Ermənilərin həyata keçirdikləri cinayət aktlarına göz yumurlar. Bu münasibət nə vaxta qədər davam edəcək, demək çətindir.

### "Terrorçu Ermənistan humanitar atəşkəsi pozmaqla sülh tərəfdarı olmadığını bir daha sübut etdi".

"Ermənistanın bu günə kimi törətdiyi cinayətləri cavabsız qalması yeni cinayət aktlarının törədilməsinə şərait yaradır".

Ermənistanın, onun rəhbəri Nikor Paşinyanın humanitar atəşkəs razılığını kobud şəkildə pozması ilk növbədə atəşkəs razılığının əldə olunmasında vasitəçi olan Rusiyaya ən böyük hörmətsizlikdir. Həm də ermənilərin terrorçu, cinayətkar əməllərini davam etdirməsi beynəlxalq hüququn normalarına məhəl qoymadığını göstərir. Atəşkəs razılığının əldə olunması nəticəsində Ermənistana verilən şansa da əhəmiyyət verməyən erməni quldurlar öz terrorçu əməllərinin həyata keçirilməsinə üstünlük verdilər. Bu isə əslində Ermənilərin məğlubiyyətinin qaçılmaz olduğunu göstərir.

Azərbaycan Respublikası Prezidenti Hadrut qəsəbəsinin işğaldan azad edilməsi münasibəti ilə xalqımıza müraciəti və təbriki zamanı bildirdi ki, **"Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirir. ...Strateji yüksəklikləri götürərək əlverişli mövqelərə sahib olurlar". Əməliyyat planları tam icra olunur. Əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu, həm müasir texniki təchizat, həm də döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstinliyə sahibdir. Bu gün aparılan döyüşlərdə düşmənin hərbi texnikası böyük dərəcədə məhv edilib və edilir, eyni zamanda hərbi qənimət götürülüb".**

Qeyd edək ki, sentyabrın 27-dən oktyabrın 12-ə kimi Azərbaycan Silahlı Qüvvələrin düşmənin təxminən 18 komanda məntəqəsini, 200-ə qədər tankını, 38 MB-21, 1 uraqan, 12 özü yeriyən artilleriya qurğusu, 2 REM və ya hava hücumlarından müdafiə vasitəsi, 2 ədəd S-300 kompleksinin buraxıcı qurğusu, 25 ASA zenit raket kompleksi, 4 radio texniki maneə vasitəsi, 142 topu, 60 -a yaxın mina atanı, 1 ədəd TOS 1A od saçan sursatı, 2 ədəd radio lokasiya stansiyası məhv edilib və 20 tankı, 4 dən çox topu, piyadaların 22 döyüş maşını, 12 mina atan qurğusu, 4 UAZ, 1 ekskavator, 27 iqla kompleksi, 1 zil, 9 qaz maşını və s. hərbi texnika və sursat qənimət kimi götürülüb.

Hazırda bütün cəbhə boyu döyüşlərdə Azərbaycan Silahlı qüvvələri tam üstünlüyə malikdir.

Dövlət başçısı Azərbaycan Silahlı qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev bildirdi ki, düşməni, humanitar atəşkəs rejimini pozan erməni faşistlərini bundan sonra da qovacağıq: **"Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdi. Qovacağıq onları, axıra qədər. Bayrağımızı işğal edilmiş torpaqlarda qaldıracağıq".**

## Araikin aciz yalvarışları nəticə vermir

### *Ermənilər isə artıq döyüşmək istəmirlər*



***Qondarma "dqr"in separatçı və saxta "prezidenti" Araik Arutunyan artıq bir neçə gündür ki, erməni KİV-ləri və qanunsuz olaraq Xankəndinə gedən xarici jurnalistlər vasitəsi ilə erməni xalqına aciz yalvarışlarını davam etdirməkdədir.***

Belə ki, bir müddət əvvəl işğal olunan əraziləri itirdiklərini etiraf edən Araik bu dəfə ağır və sarsıdıcı məğlubiyyətlərini guya "qəhrəmanlıq ritorikası" vasitəsi ilə ört-basdır edəcəyini düşünüb. Məhz bu baxımdan növbəti müraciətində "erməni xalqının vahidliyindən", "mübarizliyindən" və s. "keyfiyyətlərindən" ağızdolusu bəhs edərək, itirilmiş və növbəti itirəcəkləri ərazilərin də adlarını dolayıs ilə açıqlayıb.

Araik Arutunyan ermənilərin mənəvi tərəfdən məhv olduğunu da yaxşı bilir və bu dəfə onların fiziki iştiraklarının vacibliyindən danışır

"Biz daha ağır zamanlarda dayana bilmişik - 1992-1994-cü illərdə "qandzasarda" (Şuşada), Əskəranda, "Mardakertdə" (Ağdərədə), Hadrutda tarixi döyüşlərə getmişik", deyə xəyallara qapılan saxtakar separatçı məğlubiyyətin təsirindən başını itirərək, hələ də "qalib" olduqları ətrafında var-gəl edib.

Beləliklə, erməni diasporuna, xarici ölkələrdə yaşayan ermənilərə yalvaran Arutunyan onları Qarabağa gəlməyə - öz əzəli və haqqı olan torpaqları uğrunda şücaətlə döyüşən azərbaycanlılara qarşı savaş aparmağa yalvarıb.

Maraqlıdır ki, Araik Arutunyan ermənilərin mənəvi tərəfdən məhv olduğunu da yaxşı bilir və bu dəfə onların fiziki iştiraklarının vacibliyindən danışır. "Biz sizin fiziki iştirakınızı mühüm sayırıq, bizim buna ehtiyacımız var", deyə o yalvarışlarını acizliyi ilə bərabər davam etdirib.

***Rövşən RƏSULOV***

# “Əgər biz erməniləri darmadağın edib məhv etməsək....”

***“Ümumiyyətlə, ermənilər bütün tarix boyu hər zaman dinc əhaliyə qarşı müharibə aparıblar, qətliamlar və soyqırımlar törədiblər”. Bunu SİA-ya millət vəkili Elman Məmmədov deyib.***



“Əgər biz erməniləri darmadağın edib məhv etməsək, onlar yenə də öz çirkin niyyətlərindən əl çəkməyəcəklər. Azərbaycan Ordusu bunun əvəzini artıqlaması ilə çıxdı və ermənini başa saldı ki, belə hərəkətlər insanlığa yad olan bir hərəkətdir. Təbii ki, erməni faşizm ideologiyası ilə yaşayır və əlacsızlığından orduya qarşı tab gətirə bilməyərək mülki əhali ilə müharibə aparır. Mən qardaş Türkiyəyə öz təşəkkürümü bildirirəm. Gəncə hadisələri ilə bağlı hər zaman olduğu kimi, Türkiyə dövləti, vətəndaşları və bütün siyasi partiyaları və s. hamısı çox yüksək səviyyədə haqq-ədalət tərəfindən münasibətlərini bildirdilər. Bu gün mən çox fəxarətlə deyirəm ki, Azərbaycan əkshücum əməliyyatlarına başlayan gündən Türkiyə dövləti bütün canı, qanı, həm siyasi, həm də mənəvi cəhətdən bizim yanımızda olduğunu bəyan edir. Türkiyə böyük və güclü dövlətdir. Türkiyə bütün dünya mediasında və bütün dünya beynəlxalq qurumlarında səsini qaldırır. Bu, bizim üçün çox əhəmiyyətlidir və dəyərlidir”-deyə, deputat fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# Zərifə Quliyeva: “Düşmən layiqli cavabını almaqda davam edəcək”



***“İşğalçı Ermənistanın hətta humanitar atəşkəs dövründə özünün terror siyasətini davam etdirməsi artıq bu ölkənin qanlı, vəhşi məqsədini növbəti dəfə ortaya qoydu”. Bu fikirləri SİA-ya YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, “Modern ailə və inkişaf” İctimai Birliyinin sədri Zərifə Quliyeva sözügedən mövzu ilə bağlı açıqlamasında deyib.***

Onun sözlərinə görə, Moskvada XİN rəhbərləri arasında 11 saat ərzində davamlı olaraq danışıqların aparılmasından sonra prosesi daha da mürəkkəbləşdirən düşmən artıq nə qədər həddini aşdığının fərqinə varmalıdır: “Qarabağ cəbhəsində 13 gün müddətində rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində işğal altındakı torpaqlarımızın bir hissəsinin - kəndlərimizin və bir rayon mərkəzinin azad olunması artıq sübut edir ki, düşmən son nəfəsini verir. Bu baxımdan, indi də dinc əhalimizin yaşadığı yerlərə - Gəncəyə, Mingəçevirə, Bərdəyə və s. ərazilərimizə raket zərbələri endirir, həmin vasitə ilə qorxu saçmağa cəhdlər göstərir. Lakin gördüyümüz kimi, xalqımız qətiyyən geri çəkilmir, əksinə bu ədalətli, haqlı mübarizədə Ali Baş Komandanımızın, cənab Prezident İlham Əliyevin yanında olduğunu bəyan edirlər”.

“Əbəs deyil ki, artıq dövlətimizin başçısı xalqa müraciətində qətiyyətlə status-kvonun dəyişdiyini vurğulayıb”, deyə xatırladan Zərifə Quliyeva onu da bildirib ki, çünki ötən 30 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri status-kvonu dəyişmək üçün heç nə etmədilər. Bu isə işğalçı Ermənistanı qane edirdi: “Belə olan halda haqlı tərəf olan Azərbaycan özü status-kvonu dəyişdi - torpaqlarımızı düşmən tapdağından azad etməsi ilə. Məsələn, qeyd edərdim ki, Dağlıq Qarabağın inzibati ərazisinə daxil olan Hadrutun və ətraf kəndlərin azad edilməsinin böyük geo-siyasi əhəmiyyəti var və yağı, mənfur düşmən bundan hiddətlənməklə vəhşiləşir, bax bu cür xain terror əməllərinə əl atırlar. Əlbəttə ki, bunun əvəzində daha ağır zərbələri alacaqlar”.

Zərifə Quliyeva əlavə edib ki, bu gün dinc şəhərlərimiz bombalanarkən, raket zərbələrinə məruz qalarkən, ermənilərin humanitar atəşkəs rejimini pozmalarına, vətəndaşlarımızın öldürülməsinə, yaralanmasına yenə də göz yumanlar var: “Haradadır bəzi insan hüquq təşkilatları, demokratiya carçıları? Haradadır ATƏT-in Minsk qrupu, Avropanın təşkilatları? Niyə bu vəhşiliyə, hətta üstündən saatlar keçsə belə, hələ də susqun qalıblar?

Amma buna baxmayaraq, milli həmrəylik, yüksək vətənpərvərlik, dünya azərbaycanlılarının birliyi dövlətimizin əzmini daha da artırır, düşmənin xain hücumlarına layiqli cavabların veriləcəyinə inanır. Eyni zamanda, Azərbaycanı dəstəkləyən hər bir kəs bütün informasiya platformalarında həmrəy olub Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fədakarcasına mübarizə apardılar. Türkiyə, Pakistan, Əfqanıstan və s. qardaş ölkələr səsimizə səs verirlər.

Biz inanırıq və əminik ki, Ermənistan çox yaxın vaxtlarda təslim bayrağı qaldıracaq. Atıq baş verənlər sübut etdi ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi anti-insani, faşist simasındadırlar. Bu baxımdan, Ali Baş Komandanımız, cənab İlham Əliyev tərəfindən onlara verilən son şans dəyərləndirilmədi və düşmən layiqli cavabını almaqda davam edəcək”.

***Rəfiqə HÜSEYNOVA***

# İrəli, Azərbaycan əsgəri!

***4 oktyabr 2020-ci il. Həmin gün çoxdan gözlədiyimiz bir müjdə gəldi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” səhifəsində paylaşımında bu sözlər yazmışdı: “Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!”.***

Həmin günün sabahı daha bir şad xəbərlə açıldı. Prezident İlham Əliyev Cəbrayılın işğaldan azad olunan daha bir neçə kəndinin və strateji yüksəkliyinin adını açıqladı: “Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!”.

-Budur, rəşadətli Ordumuzun sentyabr ayının 27-dən başlayan əks-hücumu ilə təcavüzkar Ermənistanın işğal etdiyi ərazilərimizi azad edir, addım-addım böyük qələbəyə yaxınlaşırıq. Fitnəkar düşmənin iç üzü, yaramaz xisləti bir daha özünü göstərir. Qəhrəman döyüşçülərimizin qarşısında duruş gətirməyən soysuzlar yaşayış məntəqələrimizi müxtəlif növ silahlardan, o cümlədən iri çaplı artilleriyadan atəşə tutur. Bunun nəticəsində dinc əhali, o cümlədən qocalar, qadın və uşaqlar həyatlarını itirirlər. Düşmən son nəfəsdə olduğunu yaxşı anlayır. Baş Komandanımızın rəhbərliyi ilə qüdrətli Ordumuz erməni mövqelərini darmadağın edir.

Bizi- Qarabağ həsrətilə köksü göynəyən, qəlbi sızlayan anaların ağrılarının məlhəmini Siz tapdınız, əziz Ali Baş Komandanım! Qətiyyətiniz, Vətən sevginizlə, dünyamızın bu qarışıq dolanbaclarında ən doğru yolu, ən düzgün siyasəti Siz böyük bilik və təcrübəniz sayəsində əməlinizlə sübut etmədəsiniz. Bütün xalq- böyüklü-kiçikli, qocalı-cavanlı Sizin yanınızdadır. Oğullarımızın qorxmazlığı, cəsarətilə bütün analar öyünür.

Sona yetsin Qarabağ həsrətimiz. İnsanlarımız doğma yurdlarına qayıtsın. Bu ülvi arzumuz, şükrlər olsun ki, yerinə yetmək üzrədir. Erməni xisləti bütün dünyaya daha da aşkar oldu. Bu millətin qorxaq, hiyləgər, namərd, əzazil sifətini bütün dünya gördü. Müharibə qanunlarının əksinə olaraq mülki əhalimizi qətl etməsi, yaşayış və inzibati binaları atəşə tutması, dağıtması onların Ordumuz qarşısında acizliyidir-bunun başqa adı yoxdur. Döyüşlərin başlandığı günə kimi hərbi-texniki arsenalının gücündən, ordusunun qüdrətindən dəm vuran qatil Ermənistan rəhbərliyi bu günlər Azərbaycanın müzəffər yürüşünün qarşısını almaq üçün dünya dövlətlərindən acizanə surətdə kömək umur, yalvarıb-yaxarır. Bilmirlər ki, daha dünya dəyişib. Havadarları nə qədər çalışsalar da, onların qarşısında ən əvvəl BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi ən tutarlı hüquqi əsas kimi durur. Bu beynəlxalq hüquqi sənəd Ermənistandan işğal etdikləri Azərbaycan torpaqlarından dərhal və qeydsiz-şərtsiz çıxmasını tələb edir.



**Könül Məmmədova, YAP Şamaxı rayon təşkilatının şura üzvü**

Döyüş meydanlarında qəhrəman əsgər və zabitlərimizin hünər dastanı yazılmaqda davam edir. Diplomatik sahədə haqq işimiz dünya dövlətlərinə çatdırılır, müdafiə olunur. Cənab Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev hər iki cəbhədə əzmlə çalışıb, reallığı bütün incəlikləri ilə beynəlxalq ictimaiyyətə çatdırır. Yüksək siyasi bilik və təcrübəsi, qətiyyətli mövqeyi ilə Azərbaycanın haqlı mübarizəsini davam etdirir.

Hamımızın qəlbi bir amalla döyünməyindən, bir hədəfə köklənməyimizdən gözəl nə var? Cənab Prezidentimiz nə qədər haqlıdır- Biz birlikdə güclüyük! Qarabağ həsrətimizə də elə bu Sarsılmaz Birlik, Tükənməyən Güc son qoyacaq! Allahdan şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirik!

# Anar Xəlilov: “Ermənilər layiq olduqları cəzanı alırlar”



“Artıq bir əsrdən çoxdur ki, ermənilər azərbaycanlılara qarşı terror əməlləri törədir və soyqırımı planı həyata keçirir”. Bunu “Səs” qəzetinə açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, havadarlarının sayəsində ermənilərin cinayət əməlləri cəzasız qalırdı: “Bundan istifadə etməklə torpaqlarımızı həyasızcasına zəbt edən faşist xislətli ermənilər düşünürlər ki, onları Cənubi Qafqaza gətirən, saxta tarix yazıb hədiyyə edən, dövlət statusu bəxş edən havadarı bunların cinayət əməllərini himayə edəcək. Nəhayət, 30 ildən artıq ATƏT Minsk Qurupunun həmsədrlərinin nağıllarına qulaq asan Azərbaycanın səbri tükəndi. Qardaş Türkiyə və Pakistanın mənəvi dəstəyinə arxalanan Azərbaycan ermənilərin davamlı təxribatlarına cavab olaraq əks hücüm əməliyyatlarına başladı. Təbii ki, Azərbaycan ordusunun qurulmasında, müasir hərbi texniki təchizarla təmin olunaraq Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsində əsas rol Prezident İlham Əliyevə mənsubdur. Məhz Onun apardığı hərbi diplomatik siyasətin nəticəsidir ki, ermənilər bu gün layiqli cəzalarını almaqdadırlar. Eyni zamanda, əks hücüm əmri verən Ali Baş Komandanımızın qətiyyəti və bu yolda dönməz əzmliyi əsas faktorlardan biridir. Xalq, ordu, Prezident birliyi yaradan bu siyasətin müsbət nəticələri artıq qısa zaman kəsiyində ortadadır və bütün dünyanı heyrətləndirməkdədir. Azad olunmuş torpaqlarımız, düşmənin silah, sursat, texnikalarının ataraq başı pozuq şəkildə qaçması dediklərimin əyani sübutudur”.

A.Xəlilov faktlara istinadən bildirdi ki, artıq Ermənistan ordusu deyilən bir ordu yoxdur: “Özünü itirmiş xaotik şəkildə müqavimət göstərən ayrı-ayrı qruplar və faşist ideologiyasına söykənən siyasi rəhbərlik var. Məhz döyüş meydanında uduzan bu siyasi rəhbərlik ən alçaq üsula əl ataraq dinc əhaliyə qarşı qırğına əl ataraq köhnə əməllərini davam etdirməkdədir. Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağcabədi, Beyləqan, Horadiz, Yevlax və s. şəhər, rayonlarımızın raket atəşinə tutulması ancaq faşist xislətli erməni terrorçularının bacardığı yeganə vasitədir. Bu mənfur əməlin nəticəsində bu gün dinc sakinlərimizin, qadın və uşaqların qanı axıdılır. Cənab Prezident qeyd etdiyi kimi, Azərbaycan dövləti dinc əhali ilə döyüşmür, işğalçı ilə döyüşür. Bunlar isə döyüş meydanında həmişə olduğu kimi məğlub olduqda, namərdcəsinə dinc əhaliyə qarşı terror əməlləri həyata keçirirlər. Bunların havadarları isə yenə bunu görmürlər. Yenə eyni notlar , ittihamlar, yalan, şər. Onsuz da onlardan başqa mövqe də gözləməyə dəyməz. Dünyanın böyük hissəsi şərin tərəfdarı kimi görünür. Olsun, Cənab Prezidentin qətiyyətli əmri ilə başladılan bu əks hücum xeyir qüvvələrin himayəsindədir, əməlimiz xeyirdir. Tanrı bizimlədir. Haqq işimiz olan bu savaş erməni terroruna və işğalına son qoyacaqdır. Cənubi Qafqaz sülhə çatacaq, region xalqları öz inkişafına davam edəcəkdir. Tanrı Ali Baş Komandanımızı və ordumuzu qorusun”.

***Gülyana***

*"Milli-mənəvi dəyərlərini qoruyub saxlamış xalq həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir"- Ümummili lider* ***Heydər Əliyev***

# Azərbaycan dövləti milli-mənəvi dəyərlər əsasında qurulub

Hər bir millətin tarix boyunca inkişaf etmiş, qirunub saxlanmış milli-mənəvi dəyərləri var və o milləti də formalaşdıran da bu dəyərləridir. Bəzən bir cəmiyyətdə müxtəlif xaqlara görə dəyişən milli dəyər anlayışı çox zaman ümumi rahatlıq və vətən naminə həmrəylik nümayiş etdirməkdir. Çünki bir milləti, cəmiyyəti var edən və daima ayaqda saxlayan da təkcə milli səyərlər deyil, həm də ortaq mənəvi dəyərləridir.

Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli-mənəvi dəyərlərimiz Azərbaycanın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür, duz-çörək qədər hamımıza əzizdir. Dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutur.

Uzun illər aparılan tədqiqatlar, araşdırmalar qədim köklərə malik Azərbaycanın bir çox adətini əsrlər boyu qoruyub saxladığını üzə çıxarır. Azərbaycanın milli dəyərləri min illər əvvəl formalaşan, bu günədək demək olar ki, dəyişilməyən, itirilməyən dəyərlərdir. Bu dəyərlər fərqli millətlərin yaşadığı bir cəmiyyətdə vahid xalq olaraq formalaşmağımızda əhəmiyyətli rola malikdir.

Milli-mənəvi dəyərlər və Azərbaycançılıq bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdir. Bu amillər milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsipləri əsasında formalaşıb. Xalqımız əsrlər boyu qoruduğu, bəzən əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib, bu milli özünüdərkin formalaşmasına böyük kömək edib.

Düzdür, tarix boyu bu sərvətimizə göz dikən yadellilər olub, amma bir millətin dəyəri onun qanında, genetikasındadır, o səbəbdən də milli-mənəvi dəyərlərimizi bizdən almaq cəhdləri həmişə boşa çıxıb, atalar demişkən, yel qayadan heç nə apara bilmir, tozdan başqa.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın- Azərbaycançılığın təşəkkül və inkişafına müstəsna yer ayırdı. Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Ümummilli lider əsasən 3 tərkib hissəni xüsusi qeyd edirdi: dil, din, adət-ənənə.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. "Milli-mənəvi dəyərlərini qoruyub saxlamış xalq həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir" - deyən Heydər Əliyev hər bir azərbaycanlının öz milli mənsubiyyətinə görə qürur hissi keçirməli olduğunu dilə gətirirdi. O bildirirdi ki, hər bir azərbaycanlı Azərbaycançılığı- Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır.

Məhz o səbəbdəndir ki, Azərbaycanda milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Dövlət idarəsi, cəmiyyətin təşəkkülü də bu fondadır. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bu cür inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbr və təmkinlə həyata keçirdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"- ümummilli lider bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

O deyirdi ki, Azərbaycançılığımızı, milli ideologiyamızı, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirməliyik. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ümummilli lider yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir.

Qeyd etmək vacibdir ki, qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyurdu. Onun milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" - bəyanatı probleme təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən ümummilli liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir. Onun ideyalarını indi Prezident İlham Əliyev layiqincə davam etdirir, milli dəyərlərimizə, mənəvi sərvətimizə sahib çıxır.

Bu gün dövlətimiz milli dəyərlərimizin qarantına çevrilib, ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir. "Gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərməğan edilməlidir" - prinsipi əsas götürülür.

Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli mədəniyyət və dövlətçilikdir. Dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Bu istiqamətdə atılan hər bir addım qədim zamanlardan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Prezident İlham Əliyev Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının 1-ci ilinin yekunlarına həsr olunan konfransdakı çıxışında bu məsələləri aydın şərh etmişdi:

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd.

Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bax, Azərbaycan belə inkişaf etməlidir. Bu gün Azərbaycan müasir, inkişaf edən ancaq öz köklərinə sıx bağlı olan dövlət və cəmiyyətdir. Həmişə də belə olmalıdır. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq. Ölkəmizin müstəqil həyatı üçün bu, əsas şərtdir".

Danılmazdır ki, Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsidir. Məhz bu səbəbdəndir ki, indi bir çox Avropa alimi Azərbaycan adətlərini, mədəniyyətini tədqiq edir, milli musiqimizi, çalğı alətlərimizi öyrənməyə çalışır. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır.

Heydər Əliyev Fondunun bu sahədəki əməyi isə olduqca yüksəkdir, Fondun milli-mənəvi dəyərlərin unudulmaması, dünyada tanıdılması sahəsində atdığı addımlar, gördüyü işlər təqdirəlayiqdir. Heydər Əliyev Fondunun prezidenti, birinci xanım, millət vəkili Mehriban xanım Əliyevanın Azərbaycan muğamlarının öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti onun mənəvi dəyərlərə bağlılığının və yüksək vətənpərvərliyinin əyani təsdiqidir.

Heydər Əliyev Fondu xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi və intellektual irsə böyük diqqət və həssaslıqla yanaşır, milli mədəniyyətimizin dünya arenasına çıxmasında və təbliğində fəal iştirak edir. Fond ulularımızdan yadigar qalmış mədəniyyət incilərinin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün dəqiq, məqsədyönlü, konkret fəaliyyət planına malikdir.

Müasirlik milli kökü, adət-ənənəni itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir. Avropa dəyərlərini cəmiyyətimizə yeritməyə cəhd edənlər də artıq bunu anlayıb. Avropalı sosioloqlar, elm adamları indi təşviş içindədir, çünki cəmiyyətin mənəviyyatında böyük problemlər var. Onlar bu aşınmanı aradan qaldırmaq üçün Qədim Şərq mədəniyyətini öyrənməyə başlayıblar. Cəmiyyətimizdə bir qisim gənc müasirləşmək adı altında Avropa cəmiyyətinin davranışını, geyimini örnək götürür. Amma sirr deyil ki, Qərbin bizə doğma gələn milli dəyəri yoxdur, həmin qismə cazibədar gələn oradakı müasirlik adı altında boy göstərən mənəviyyat problemidir.

Düzdür, zaman dəyişdikcə hər bir cəmiyyətə xas olan insanın psixologiyası, yaşam tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər. Nəsillərin dəyişilməsi ilə dəyərlərin mahiyyəti də dəyişir, amma Azərbaycan kimi milli kökünə bağlı olan ölkələrdə bu baş vermir. Bir ölkənin, müstəqil bir dövlətin ən böyük problemləri o zaman yaranır ki, o ölkədə mənəviyyat məsələsi arxa plana keçirilir. İqtisadi, siyasi məsələlər mənəviyyatdan önə keçirsə o ölkədə, o xalqda rifah halı yaxşılaşmaz, insanlar birlik olmaz. Müstəqilliyin əsas üstünlüyü mənəvi məsələlərə diqqət ayırmaqdır.

Dil, din, əxlaq, mental dəyərlər, dövlətçilik sistemi, xalqın özünəməxsus cəmiyyətdaxili münasibət sistemi, ailə institutu, ağsaqqalıq institutu və s. bizim milli-mənəvi sərvətimizdir. Bütün normal dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. Bu gün o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub və olacaq.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

15 oktyabr

# Kriştiano Ronaldo 10 günlük karantinə alınacaq



***Koronavirusa yoluxan "Yuventus"un futbolçusu Kriştiano Ronaldo Turinə qayıdıb. "La Gazetta dello Sport" nəşrinin yazdığına görə, Portuqaliya millisinin heyətində virusa yoluxduğu aşkarlanan 35 yaşlı hücumçu Turində 10 günlük karantinə alınacaq. Onda virusun simptomlarının olmadığı bildirilib.***

Ronaldonun A Seriyasının növbəti turunda "Krotone" ilə matçı və Çempionlar Liqasının qrup mərhələsində Kiyev "Dinamo"su ilə oyunu buraxacağı dəqiqdir. Onun A Seriyasında "Verona" və ÇL-də "Barselona" ilə matçlarda iştirak edib-etməyəcəyi isə hələlik bəlli deyil.

Qeyd edək ki, UEFA-nın reqlamentinə əsasən oyunun keçirilməsinə ən azı 7 gün qalmış futbolçunun koronavrus testi mənfi olmalıdır. "Yuventus" "Barselona" ilə oktybarın 28-də qarşılaşacaq.

# Aquero: "Messi ilə evli cütlük kimiyik"



Argentina millisinin və "Mançester Siti"nin futbolçusu Serxio Aquero yığmanın təlim-məşq toplanışları zamanı bir otaqda qaldığı Lionl Messi ilə keçirdiyi vaxtlardan danışıb. Qol.az xəbər verir ki, 32 yaşlı hücumçu "Barselona"nın kapitanının deyingən olduğunu söyləyib: "Biz Messi ilə uzun illərin evli cütlüyü kimiyik. Leo dəhşətli dərəcədə deyingəndir. Mən həmişə televizora baxarkən yuxuya gedirəm. O isə səhər şikayət etməyə başlayır. Biz 19:30-da məşqdən otelə qayıdırıq və 21:00-da şam yeməyinə getməliyik. Leo duşa gedir və çölə çıxmaq üçün hazırlaşır. Mən isə bu vaxt telefonla danışıram. Vaxt keçdikcə o, belə deyir: "21:00-da yeməyə gedəcəyik. 30 dəqiqə qaldı". Mən isə telefonda söhbətə davam edirəm. Leo isə yenə danışır: "10 dəqiqə qaldı. Biz həmişə gecikirik". Bundan sonra hazırlaşmağa başlayıram. O, gecikməyi sevmir".



## TƏBRİK edirik!

**OCOS şirkətinin lideri Kəmalə xanım şirkətin PRO rütbəsini bağlaması münasibəti ilə şirkət rəhbərliyindən Güiarə xanım , Rəfael, Kənan və Xəyal müəllimlər, əəməkdaşları - Vasif, Elnur, Mahir, Oqtay, Rizvan müəllimlər, xanımlardan- Fatma, Zəhra, Aytən, Yeganə, Zəminə, Gülnar, qızı Arzu və başqaları təbrik edir, ona uzun ömür, can sağlığı və bundan da daha yüksək rütbələrə yüksəlməsini arzu edirlər.**

## ELAN

**Zərdab rayonu Şahhüseynli kəndində Süleymanova Nobat Orucalı qızının adına verilmiş JN-345 saylı pay torpağının Dövlət Aktı və 335 saylı həyətyanı torpağın şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

# Keşniş infeksiyalara qarşı mübarizədə orqanizmə kömək edir



Mütəxəssislər pandemiya dövründə keşnişdən istifadə etməyi məsləhət görürlər. Bu sadə bitki məhsulu orqanizmə infeksiyalarla mübarizə aparmağa kömək etməklə yanaşı, xərçəng şişləri də daxil olmaqla onu bir çox təhlükəli xəstəliklərin inkişafından qoruyur.

Keşniş qida maddələri ilə, o cümlədən C və K vitaminləri, zülal və kalsium, fosfor, kalium, dəmir, maqnezium maddələri ilə zəngindir. Həkimlər bu bitkidən istifadənin müalicəedici effekti barədə fikirlərini bölüşüb. "Food News" portalında keşnişin faydalı xüsusiyyətləri barədə məlumat verilib.

Keşniş infeksiyalara qarşı mübarizə aparır. Tədqiqatlara görə, koriandr göbələk və mikrob əleyhinə güclü xüsusiyyətlərə malikdir. Koriandr efir yağı Candida növündən olan göbələklərin inkişafına qarşı effektiv təsirə malikdir. Belə ki, koriandrın patogenlərin hüceyrə divarını məhv etdiyi və onların çoxalmasının qarşısını aldığı müəyyənləşdirilib.

Keşniş diabet xəstəliyinə kömək edir. Diabetik heyvanlar üzərində aparılan təcrübələrdə koriandr saplağından və yarpağından alınan cövhərin qanda şəkərin səviyyəsini aşağı salması məlum olub. Alimlər bu təsiri bitkinin antioksidant xüsusiyyətləri ilə əlaqələndirirlər.

Keşniş həmçinin xolesterinin səviyyəsini aşağı salır. Tədqiqatçılar keşniş cövhərinin ümumi xolesterinin, LDL xolesterinin və qanda trigliseridlərin səviyyəsini azaltmaq xüsusiyyətinə malik olduğunu bildirirlər.

Orqanizmi iltihabdan, xərçəngdən qoruyan keşniş, həmçinin antioksidant maddələrin güclü mənbəyi sayılır. Bu sadə bitki, toplam halında orqanizmdə güclü fəsadlar yaradan sərbəst radikalları aradan qaldıra bilir. Belə ki, keşniş sərbəst radikallara təsir göstərə bildiyinə görə, iltihab və şiş proseslərinin inkişafına səbəb olan hüceyrə zərərlərinin qarşısını ala bilir. Koriandr kökündən alınan cövhərin orqanizmdəki xərçəng hüceyrələrinin miqrasiyasına mane olması və hətta onları məhv edə bilməsi barədə məlumatlar var.

Keşnişin daha bir faydalı cəhəti, onun yaddaşı və zehni qabiliyyəti gücləndirməsidir. 2011-ci ildə aparılan araşdırmadan məlum olub ki, qidasına keşniş yarpaqları qatılan siçanların yaddaşı 45 gün ərzində bərpa olunur. Bu təsir, beynin iltihabını azaltmağa, yaddaşı yaxşılaşdırmağa, narahatlıq və stress əlamətlərini azaltmağa kömək edən antioksidantların mövcud olması ilə izah edilir.

# Dünyada hidrogenlə işləyən ilk ikimərtəbəli avtobuslar istifadəyə verilib



**Şotlandiyada dünyada hidrogenlə işləyən ilk sərnişin avtobusları istifadəyə verilib. London hakimiyyəti, həmçinin bu nəqliyyat modellərini tətbiq etməyi planlaşdırır. AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, Şotlandiyada Aberdin şəhərinin hakimiyyəti tərəfindən dünyada yalnız hidrogenlə işləyən ilk ikimərtəbəli avtobus təqdim edilib. Onlar artıq şəhərin ictimai nəqliyyatının bir hissəsinə çevrilib, bu islahat havanın çirklənməsi ilə mübarizə aparmaq və tullantıları sıfır həddinə çatdırmaq üçün nəzərdə tutulmuş layihənin ilk addımıdır.**

**Avtobuslar son sınaq mərhələsindədir, lakin şəhər sakinləri artıq onlardan istifadə edə bilərlər. Bu avtobuslar bir neçə həftə ərzində şəhərdə hərəkət edəcək ki, sürücülər yeni nəqliyyat növünü idarə etməyə vərdiş etsinlər. Bu layihə məqsədi şəhərin iqtisadi və ekoloji aspektlərini daimi yaxşılaşdırmağı hədəfləyən Aberdin şəhər şurasının rəhbərliyi altında həyata keçirilir.**

**Sözügedən avtobuslar "Wrightbus" şirkəti tərəfindən hazırlanır. 10,8 milyon dollar məbləğində layihə Aberdin şəhər şurası, Şotlandiya hökuməti və Avropa İttifaqı tərəfindən maliyyələşdirilir. Hər bir avtobusun qiyməti 652 min dollardır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**